QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 144 (5616) 2 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Gələn il sürətli inkişaf ili olacaq"

*Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub*



Səh 2

10

120 yaşlı Azərbaycan kinosu



6

"Tarif Şurasının nəqliyyatda qiymət artımı ilə bağlı qərarının inflyasiyaya təsiri minimal olacaq"



16

İquain "Milan"dan 9 milyon istəyir



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

2 avqust 2018-ci il

# İlham Əliyev: "Gələn il sürətli inkişaf ili olacaq"

## *Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub*





***Avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına məlumat verdi ki, nazirlik "ŞA İnşaatçı" Mənzil Tikinti Kooperativi tərəfindən inşa olunan binadan ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə verilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Daimi qaz, su və işıqla təchiz edilən mənzillər yüksək səviyyədə təmir olunub, bütün zəruri avadanlıq, o cümlədən mətbəx mebeli quraşdırılıb. Bundan başqa, mənzillərdə kombi sistemi də qurulub. Sonra Prezident İlham Əliyev əlil və şəhid ailələrinin üzvləri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, son iyirmi il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil verilib:

-Bu gün Lökbatan qəsəbəsində yeni inşa edilmiş yaşayış kompleksində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 35 mənzil təqdim olunur. Dövlət bu mənzilləri satın alıb və sizə hədiyyə edir. Eyni zamanda, bu gün sizə 136 minik maşını da verilir. Bu da dövlət tərəfindən sizə verilən növbəti hədiyyədir.

Deməliyəm ki, son iyirmi il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil verilmişdir. Altı mindən çox minik maşını verilmişdir. Yəni, bu, dövlətin sizə olan qayğısının təzahürüdür və bu siyasət bu gün də davam etdirilir. Dediyim kimi, bu gün 35 mənzil verilir. Ancaq ilin sonuna qədər nəzərdə tutulan rəqəm əlavə 170 mənzil və fərdi evdir. Bununla belə, nəzərə alsaq ki, hələ də növbədə kifayət qədər insan var, - təqribən 4 minə yaxın insan növbədədir, - mən əlavə vəsait ayıraraq bu il minimum daha 300 mənzilin alınması ilə bağlı qərar qəbul edəcəyəm. Beləliklə, ehtiyac içində yaşayan 500-ə yaxın insan ilin sonuna qədər mənzillərlə təmin ediləcək. Biz çalışmalıyıq ki, bu proqramı tezliklə başa çatdıraq. Əlbəttə ki, buna nail olmaq üçün kifayət qədər maliyyə vəsaiti olmalıdır. Biz imkan daxilində bu vəsaiti təmin edib, təşkil edib sizə mənzilləri təqdim edəcəyik. Hələ də mənzillə təmin olunmayan şəhid ailələri, müharibə əlilləri mütləq mənzillər alacaqlar.

Dövlət öz siyasətini aparır. Bu kateqoriyadan olan insanların məşğulluq problemləri də həll olunur. Bildiyiniz kimi, biz indi genişmiqyaslı özünüməşğulluq proqramının icrasına başlamışıq. Hər il ən azı 7 min ailə bu proqramla əhatə olunacaq. Hər bir ailəyə minimum 5 min manat dəyərində ləvazimat, vəsait, müxtəlif təyinatlı avadanlıqlar veriləcək ki, onlar öz biznesini, öz işini qura bilsinlər. Göstəriş verilmişdir ki, müharibə əlilləri, şəhid ailələri də mütləq bu proqramla əhatə olunsunlar. Artıq bu işlər başlamışdır, təlim kursları aparılır. Beləliklə, biz məşğulluq probleminin həllinə də çox ciddi töhfə vermiş olacağıq.

Dövlətimizin sosial siyasəti uğurla aparılır. Görülmüş işlər bunun bariz nümunəsidir. Dediyim rəqəmlər onu göstərir ki, dövlət həmişə sizin yanınızdadır. Eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün, qaçqın soydaşlarımız var. Onlar da dövlət tərəfindən qayğı ilə əhatə olunurlar. Son illərdə 100-ə yaxın qəsəbə salınıb. Üç yüz minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət davam etdirilir. Bu il Qaradağ rayonunun Qobu qəsəbəsində min mənzillik yeni köçkün qəsəbəsi salınmışdır. Orada da bütün infrastruktur, məktəb, bütün lazımi məsələlər öz həllini tapıb. İlin sonuna qədər isə 4 min köçkün ailəsi, təqribən 20 min insan yeni mənzillərlə təmin ediləcək. Yəni, biz ancaq bu layihələri nəzərə alsaq görərik ki, nə qədər böyük qayğı göstərilir və bu məqsədlərə çatmaq üçün dövlət nə qədər vəsait xərcləyir.

Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir. Biz imkan daxilində bu məsələləri həll edirik. Deyə bilərəm ki, işğaldan və etnik təmizləmədən əziyyət çəkmiş dövlətlər arasında Azərbaycanda bu sahədə görülən işlər ən yüksək səviyyədədir. Bunu beynəlxalq təşkilatlar da, BMT də qeyd edir və Azərbaycan təcrübəsi bir çox ölkələr üçün nümunə kimi göstərilir. Bəlkə də dünyada öz vətəndaşlarına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir. Bu siyasət davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bu gün növbədə duran bu kateqoriyadan olan bütün insanlar imkan daxilində mənzillərlə, evlərlə, maşınlarla təmin ediləcəklər.

O ki qaldı, bizim iqtisadi potensialımıza, - çünki bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, - iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev dövlət aqrar inkişaf mərkəzlərinin yaradılması barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Gədəbəy rayonunun Slavyanka-Qoşabulaq-Pərizamanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan kino xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev: “Gələn il sürətli inkişaf ili olacaq”

## Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub







Əvvəli-Səh-2

Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə isə, o həllin bir yolu var: ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Bunu tarix deyir, beynəlxalq hüquq deyir və bütün dünya dövlətləri ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Keçən ay Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış “Tərəfdaşlıq prioritetləri” sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı Azərbaycana çox böyük dəstək ifadə olunmuşdur. Bu, bizim növbəti diplomatik qələbəmizdir. Eyni zamanda, keçən ay NATO-nun zirvə görüşünün nəticəsi olaraq qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilib. Yəni, bunlar çox ciddi siyasi sənədlərdir, həqiqəti, beynəlxalq hüququ əks etdirən sənədlərdir. Eyni zamanda, işğalçı ölkəyə göndərilən çox ciddi siqnallardır. Onlar bilsinlər ki, mötəbər beynəlxalq təşkilatlar bu məsələni diqqətdə saxlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həlli yalnız bu prinsiplər əsasında ola bilər və olmalıdır.

İşğalçı dövlət indi ağır günlər yaşayır. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal xunta rejimi çökdü. Onların işğalçı siyasəti iflasa uğradı. Onların bu vəziyyətə düşməsinin əsas səbəbi işğal siyasətidir. Çünki əgər işğal siyasəti olmasaydı, Ermənistan regional layihələrdən təcrid edilməyəcəkdi və beləliklə, bizim imkanlarımızdan faydalana bilərdi. Məhz işğalçılıq siyasətinə görə Ermənistan bu gün bu ağır, təcrid edilmiş vəziyyətdədir və iqtisadi inkişaf üçün heç bir perspektiv yoxdur. O vaxta qədər ki, Azərbaycanla münasibətlər normallaşmayacaq. Normallaşmanın da bir yolu var - işğalçı dövlət bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxmalıdır. Necə ki, dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurası 25 il əvvəl qətnamə qəbul edib və orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə qalacaq. Ona görə münaqişənin həlli üçün yol, bax, bu yoldur.

Ermənistanın yeni hökuməti bunu yaxşı başa düşməlidir. Əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Düzdür, yeni hökumət indi daxili işlərlə daha çox məşğuldur, ancaq bildirməliyəm ki, onlar tərəfindən səslənən ziddiyyətli bəyanatlar həm bizdə, həm bu məsələ ilə məşğul olan ölkələrdə və beynəlxalq təşkilatlarda təəccüb doğurur. Çünki bir-birini təkzib edən bu bəyanatlar başadüşülən deyil. Bir tərəfdən deyirlər ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağın qondarma rejimi ilə danışıqlar aparmalıdır. Bu, ümumiyyətlə, qəbuledilməzdir və bu, elə bir təklifdir ki, bu təklifi verən tərəf bəri başdan bilir ki, bu, qəbul edilməyəcək. Digər tərəfdən, bu təklif vasitəçilər tərəfindən heç vaxt qəbul edilməyəcək. Üçüncü tərəfdən, o bəyanatdan bir müddət keçəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşür və danışıqlara başlayır. Yəni, tamamilə bir-birini təkzib edən, bir-birinə zidd olan yanaşmadır. Əlbəttə, biz başa düşürük, yeni hökumətə müəyyən qədər vaxt lazımdır ki, beynəlxalq münasibətlərdə mövcud olan praktikanı düzgün təhlil etsin. Ancaq, əlbəttə ki, bu bəyanatlar sülh prosesinə vurulmuş növbəti zərbələrdir və bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki onlar işğal siyasətini davam etdirmək fikrindədirlər. Hələlik biz belə qənaətə gələ bilərik.

Eyni zamanda, Ermənistandan sülhə yönəlmiş çağırışlar da edilir, biz də bu çağırışları eşidirik. Əlbəttə, biz də sülh istəyirik, amma biz torpaqlarımızı istəyirik. Torpaqlarımız qayıtmayana qədər sülh olmayacaq və Ermənistanın yeni rəhbərliyi bunu çox yaxşı başa düşməlidir. Sülh istəyirlərsə, erməni əsgəri torpaqlarımızdan çıxmalıdır. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Müharibədən əziyyət çəkmiş, həlak olmuş, əlil olmuş Azərbaycan vətəndaşları öz torpağında həlak olublar, əlil olublar, Ermənistan torpağında yox. Ona görə münaqişənin həllinin bir yolu var - işğalçı qüvvələr bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Onda bölgədə sülh yaranar. Onda Ermənistan ilə Azərbaycan arasında əlaqələr yarana bilər. Onda regionun geosiyasi vəziyyəti tamamilə dəyişə bilər və dayanıqlı sülh yarana bilər.

Ardı Səh. 4

# İlham Əliyev: “Gələn il sürətli inkişaf ili olacaq”

## *Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub*







Əvvəli-Səh-3

Biz bunu istəyirik. Ancaq, eyni zamanda, dediyim kimi, münaqişənin tezliklə və mərhələli yollarla həlli torpaqlarımızın azad olunmasından asılıdır. Biz bunu tələb edirik və beynəlxalq hüquq da bunu tələb edir. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik, bütün vasitələrdən istifadə edib Ermənistanı daha da sarsıdacağıq. Çünki kriminal xunta rejiminin çökməsində Azərbaycanın rolu da az deyil. Onları çökdürən və uçuruma aparan birinci zərbə iki il bundan əvvəl vurulub. Aprel döyüşləri onların çürümüş sütunlarını tamamilə sıradan çıxarıb və ondan sonra kriminal xunta rejimi uçuruma doğru getməyə başlamışdır. Bunu heç kim unutmamalıdır. Əgər iki il bundan əvvəl bu döyüşlər cəmi 4-5 gün davam edibsə və buna baxmayaraq, biz iki min hektar torpağı işğalçılardan azad etdik və indi minlərlə hektar torpağa biz nəzarət edirik. Azərbaycan Ordusunun qüdrətini iyun ayında keçirilmiş hərbi paradda göstərdik. Azərbaycan Ordusu bu gün həm texniki təchizat, döyüş qabiliyyəti, silah-sursat baxımından dünya miqyasında ən güclü ordular sırasındadır, nadir ölkələrdə bizim qədər imkan var. Bizim hərbi qələbələrimiz davam edir. Bu ilin may ayında uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar torpaq işğalçılardan azad edildi. İndi oraya həyat qayıdır, əkin işləri aparılacaqdır.

Biz öz siyasətimizi davam etdirəcəyik, daha da güclü olmalıyıq. Bütün beynəlxalq təşkilatlar bizi beynəlxalq və siyasi müstəvidə dəstəkləyir. İqtisadi sahədə Ermənistanla Azərbaycan arasında yerlə göy qədər fərq var. Həm hərbi paradda nümayiş olunan imkanlar, həm də döyüş meydanında göstərilən şücaət, qəhrəmanlıq göstərdi ki, kim kimdir və kim nəyə qadirdir. Biz bütün bu imkanlardan istifadə edirik və edəcəyik. Biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Bir daha demək istəyirəm, Ermənistan rəhbərliyi bilməlidir ki, sülh istəyirsə torpaqlarımızdan öz xoşu ilə çıxmalıdır.

Sizə isə Azərbaycan dövləti bundan sonra da qayğı və diqqət göstərəcək. Buna əmin ola bilərsiniz. Biz əlimizdən gələni edəcəyik ki, bu gün növbədə dayanan şəhid ailələri, müharibə veteranları tez bir zamanda sizin kimi mənzillərlə, maşınlarla təmin olunsunlar. Mən sizi ürəkdən təbrik edirəm, salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**X X X**

Prezident İlham Əliyev mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etdi.

Ümumilikdə, 136 vətəndaşa “Khazar LX” avtomobili verildi. Onlardan 110-nu ərazi bütövlüyümüzün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə Böyük Vətən müharibəsi və Çernobıl əlilləridir. “Khazar LX” avtomobilləri Neftçala Sənaye Parkında fəaliyyət göstərən “Azərmaş” MMC tərəfindən istehsal olunub. Sosial məsuliyyət prinsipləri çərçivəsində şirkət əlavə olaraq 3 avtomobil də təqdim etdi.

Prezident İlham Əliyev sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində Fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur. Bu gün Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzil və avtomobillərin verilməsi də Prezident İlham Əliyevin bu kateqoriyadan olan insanlara göstərdiyi dövlət qayğısının növbəti nümunəsidir. Sonda xatirə şəkli çəkdirildi.

# Türkiyə Prezidenti Bakıda: böyük geosiyasi məkanın iki lideri

*Türkiyədə prezident seçkisindən sonra R.T.Ərdoğanın ilk xarici səfərini hansı ölkəyə edəcəyi böyük maraqla gözlənilirdi. Ekspertlər bu məsələni Ankaranın xarici siyasətinin prioritetlərindən biri kimi qiymətləndirirdi. Çünki ilk xarici səfər faktiki olaraq Türkiyənin ən yüksək dəyərləndirdiyi və yaxın bildiyi dövləti dünyaya nümayiş etdirmək demək idi. R.T.Ərdoğan bu statusda Azərbaycanı gördüyünü təsdiq etdi. Səfər çox uğurlu və səmərəli keçdi. İki qardaş ölkənin liderləri əməkdaşlıq imkanlarını bir daha müzakirə etdilər. Qarşılıqlı sərmayə qoyuluşunu daha da inkişaf etdirmək barədə razılıq əldə edildi. Ticarət, enerji, iqtisadiyyat, elm, təhsil, nəqliyyat və hərbi sferalarda yeni proqramların həyata keçirilməsində böyük qətiyyət nümayiş etdirildi. Bütün bunların geosiyasi nəticələri üzərində geniş dayanmağa ehtiyac görürük.*




### Real geosiyasi hesablar: iki qardaş dövlət arasında əməkdaşlığın əsas meyarı

Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün nümunədir. İki qardaş ölkə müstəqil dövlət kimi geniş və konstruktiv əlaqələr qura biliblər. Məsələ yalnız qardaşlıqda deyil, bu dərəcədə yaxın olan iki dövlətin bir-birinə beynəlxalq hüquq normaları çərçivəsində və qarşılıqlı faydalılıq prinsipi əsasında yanaşmasındadır. Etiraf edək ki, bu cür əməkdaşlığın təməlini Ulu öndər Heydər Əliyev qoyub. Ümummilli lider öz fəaliyyəti ilə sübut etdi ki, etnik və tarixi bağlılıq dövlətlərin müstəqil siyasət yeritməsinə mane olmamalıdır. Yəni qardaş qardaşın dövlətinin müstəqilliyinə daha çox hörmət etməlidir. Bu prizmadan "Bir millət, iki dövlət" deyimi tarixi əhəmiyyətlidir.

Hazırkı mərhələdə Azərbaycan-Türkiyə münasibətləri çox yüksək səviyyədədir. Azərbaycan Prezidenti İlham Əliyev uğurla bu əlaqələri daha yüksək zirvələrə qaldırmaqdadır. Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan da iki qardaş dövlətin əməkdaşlığının yeni zirvələrə yüksəlməsi üçün əlindən gələni edir. İndi müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycanla Türkiyənin bir-birini aktiv dəstəkləməsi aksioma çevrilib. İki ölkənin liderləri birgə addımlayır, ədalət və beynəlxalq hüquq normaları çərçivəsində bir-birinə aktiv dəstək verirlər.

Bunlar bir daha Türkiyə Prezidenti seçilmiş R.T.Ərdoğanın ilk xarici səfərini Azərbaycana etməsi fonunda çox maraqlı görünür. Ekspertlər bu səfərin geosiyasi əhəmiyyətini vurğulayırlar. Məsələ ondan ibarətdir ki, Türkiyə Cümhuriyyəti tarixinin çox əlamətdar bir mərhələsini yaşamaqdadır. Ankara dünyanın söz sahiblərindən biri olmaq istiqamətində vacib addımlar atır. R.T.Ərdoğanın idarəçiliyi dönəmində bu proses xeyli sürətlənib və getdikcə daha geniş aspektləri əhatə edir. Artıq dünya liderləri etiraf edirlər ki, Türkiyə qlobal miqyasda iradəsini ortaya qoyan və dünya siyasətinin gündəmini müəyyənləşdirən dövlətlərdən biridir.

Türkiyə siyasi, hərbi, iqtisadi, ticari, energetik, nəqliyyat, sosial, mədəni və digər sferalarda böyük uğurlar əldə edib. Ankaranın terrorla mübarizədə və Türk Ordusunun təcrübəsi dünyada maraq doğurub. İndi Türkiyə öz ərazisində demək olar ki, terrorun başını əzib və bəzi qonşu dövlətlərin ərazisində olan terrorçuların təmizlənməsi prosesini aparır. Bu məqam türk hərbi sənayesinin inkişaf etdirilməsi zərurətini ortaya qoyur. Prezident R.T.Ərdoğan Bakıya səfəri zamanı ifadə edib ki, Türkiyə hazırda hərbi ehtiyaclarının 65 faizini özü təmin edir. 15 il bundan öncə isə bu rəqəm 20 faiz idi (bax: Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər / AZƏRTAC, 10 iyul 2018).

Azərbaycan Türkiyə ilə hərbi sahədə aktiv əməkdaşlıq edən ölkədir. Bu barədə Prezident İlham Əliyev dəfələrlə fikir bildirib. Türkiyə Prezidentinin son səfərində də dövlət başçısı bu barədə danışıb (bax: əvvəlki mənbəyə). Onun bariz nümunələrindən biri Azərbaycan Ordusunun hərbi paradında türk əsgərlərinin də iştirak etməsi oldu. Türk qırıcıları da Bakı səmasında öz məharətini bir daha nümayiş etdirdi. Bununla yanaşı, Azərbaycan Prezidenti bu əməkdaşlığın əsas məqsədini çox aydın şəkildə ifadə edib. İlham Əliyev vurğulayıb: "Türkiyə-Azərbaycan birliyi, dostluğu regional sabitlik üçün böyük fayda verir. Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq. Türkiyənin hərbi potensialı çox güclüdür. Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır" (bax: əvvəlki mənbəyə).

Deməli, Azərbaycanla Türkiyənin hərbi sahədəki əlaqələri regionda sülhün və barışın bərqərar olması üçündür. Bunun üçün Türkiyə çox güclü orduya sahibdir, Azərbaycan Ordusu da sürətlə inkişaf edərək regionun ən güclü ordusuna çevrilib. Yəni iki qardaş ölkənin hərbi əməkdaşlığı faktiki olaraq Cənubi Qafqazda sabitliyin qorunub saxlanmasında, qüvvələr nisbətinin tarazlaşmasında əhəmiyyətli rol oynayır.

### Regional və qlobal təhlükəsizlik: Ankara-Bakı tandeminin təminatları

Ancaq Azərbaycan-Türkiyə əlaqələri daha geniş kontekstdə strateji məqsəd güdür. Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı bu məqam bir daha önə çəkildi. Aparılan müzakirələrin mövzuları bunu deməyə əsas verir ki, iki qardaş ölkə başlıca qlobal və regional məsələlərdə daha yaxın əməkdaşlıq istiqamətində inamla addımlayırlar. Hər iki dövlətin əldə etdiyi nailiyyətlər bunu deməyə əsas verir. Azərbaycan Prezidenti İlham Əliyev bu bağlılıqda ifadə edib ki, Türkiyə iqtisadi inkişaf sahəsində böyük irəliləyiş əldə edib. Hazırda o, dünya miqyasında ən qabaqcıl yerlərdən birindədir. R.T.Ərdoğanın liderliyi ilə Türkiyədə sabitlik tam bərqərar olunub. Bunlar təbii ki, Azərbaycan xalqını çox sevindirir (bax: əvvəlki mənbəyə).

Azərbaycanın əldə etdiyi uğurlar da göz qabağındadır. Bütün sahələrdə islahatlar yüksək dinamika ilə davam edir. Daxili siyasətdə əldə edilən nailiyyətlərlə xarici siyasətin uğurları uyğunluq təşkil edir. Azərbaycan enerji və nəqliyyat sferalarında yeni-yeni uğurlara imza atır. Bütün dünya Azərbaycanın inkişafını etiraf edir. Konkret göstəricilər də bunu əyani surətdə sübut edir.

Bütün bunlar iki ölkə liderlərinə inamlı, qətiyyətli və bir-birini dəstəkləməklə aktiv müstəqil siyasət yeritməyə əsas verir. Bu mövqeni Prezident İlham Əliyev çox dolğun ifadə edib. Dövlət başçısı deyib: "Türkiyə-Azərbaycan əlaqələrinin bu səviyyəyə çatmasında bizim birgə səylərimiz də mühüm rol oynayır. Bizim aramızda şəxsi dostluq əlaqələri mövcuddur və bu əlaqələr ölkələrimizi bir-birinə daha sıx bağlayır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Biz bütün məsələlərdə bir yerdəyik, bütün beynəlxalq məsələlərdə bir-birimizi daim dəstəkləyirik, bir-birimizin yanındayıq. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərir. Dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir" (bax: əvvəlki mənbəyə).

Əlbəttə, Türkiyə Dağlıq Qarabağ münaqişəsində Bakıya yalnız qardaşlıq amilinə görə dəstək vermir. Bu barədə Azərbaycanın dövlət başçısı dəfələrlə fikir bildirib. Azərbaycan Prezidenti vurğulayıb ki, Ankara əsas olaraq Azərbaycanın mövqeyinin haqlı olduğuna görə, ona dəstək verir. Burada bir ədalətli mövqe məsələsi var. Türk dövlətləri ənənəvi olaraq siyasətdə ədalətliliyə böyük yer veriblər. Eyni məntiqlə Azərbaycan daim Türkiyənin haqq səsini beynəlxalq aləmdə müdafiə edir. Bu baxımdan Prezident İlham Əliyevin məşhur "Türkiyə burda yoxdur, mən varam" deyimi çox gözəl bir nümunə kimi qəbul edilir.

Bütün bunların böyük geosiyasi əhəmiyyəti var. R.T.Ərdoğan prezident seçkisindən sonra ilk səfərini Azərbaycana etməklə ciddi mesaj verir: bütün hallarda Türkiyə Azərbaycanla münasibətlərinə çox böyük önəm verir. Ankara və Bakı bundan sonra da əməkdaşlığı inkişaf etdirəcəklər və onların çəkinəcək bir yeri yoxdur. Eyni zamanda, Türkiyə Dağlıq Qarabağ münaqişəsində ədalətli mövqeyini saxlamaqda da qərarlıdır. Onu bu mövqeyindən kimsə döndərə bilməz. Artıq Türkiyə beynəlxalq təşkilatlar səviyyəsində bu məsələni konkret qoymaq mərhələsindədir. Bunu NATO-nun son Brüssel sammitində müşahidə etdik. Şübhə yoxdur ki, həmin proses davam edəcək. Yeri gəlmişkən, Ankara və Bakının bu qətiyyəti ermənilri təlaşa salıb. Nəhayət, Türkiyə Prezidentinin Azərbaycana səfəri bir daha göstərdi ki, bütün strateji məsələlərdə iki dövlət yanaşı addımlamaqda qərarlıdırlar. Onlar bundan sonra da geniş ortaq layihələr tərtib edib, birgə çalışacaqlar. Türkiyə və Azərbaycan faktiki olaraq dünyanın enerji xəritəsini dəyişən iki dövlətdir. Buna görə də indiki mərhələdə Türkiyə və Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolu getdikcə daha da artır. Bu tendensiya maraqlı bir nəticə çıxarmağa əsas verir: Türkiyə və Azərbaycan geniş geosiyasi məkanın liderləri roluna yüksəlirlər!

**Newtimes.az**

# Bəhruz Quliyev: "Nəqliyyatın qiymətinin qalxması siyasi manipulyasiya predmeti deyil"



"Hesab edirəm ki, ictimaiyyətin qiymət artımından irəli gələn narahatlığına əsas yoxdur. Azərbaycan dövləti öz vətəndaşının rifahı naminə bütün addımları hesablanılmış formada atır". SİA-nın verdiyi məlumata görə, bunu Olaylar.az -a açıqlamasında "SƏS" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev Tarif Şurasının qiymət artımı ilə bağlı son qərarına münasibət bildirərkən deyib.

Media Qrupunun rəhbəri açıqlamasında onu da bildirib ki, qonşu dövlətlərlə müqayisədə bizdə nəqliyyat sektorunda qiymətlər çox aşağıdır: "Tarif Şurasının açıqlamasında da göstərilib ki, hər hansı bir narahatlığa əsas yoxdur. Dövlət müxtəlif sektorlarda qiymətin süni şəkildə artırılmasına nəzarət edir. Hesab edirəm, ölkə nəqliyyatının qiymətinin qalxmasını kimsə siyasi manipulyasiya predmetinə çevirirsə, bu əsassızdır, uğursuz olacaq. Çünki xalq öz dövlətinin yanındadır. Dövlət tərəfindən atılan hər bir addım cəmiyyət tərəfindən müsbət qiymətləndirilir. Bu gün ölkənin nəqliyyat sistemi müasir standartlara uyğunlaşdırılıb və günün tələblərinə cavab verir. Hətta nəqliyyat sektorunda vahid kart sisteminin tətbiqi belə Azərbaycanın inkişaf etməsinin göstəricisidir. Bildiyiniz kimi bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Bu layihə Azərbaycanın dəmir yolu vasitəsilə beynəlxaql arenaya çıxışını təmin etdi. Ümumilikdə nəqliyyat sisteminin inkişafı dövlətin ən prioritet istiqamətindən birinə çevrilib".

Bəhruz Quliyev həmçinin qeyd edib ki, əgər zərurətdirsə, qonşu dövlətlərlə, dünyada gedən proseslərlə uyğunlaşma gedirsə, bunu təbii qarşılamaq lazımdır: "Bu addımları hər hansı oyun alətinə, siyasi manipulyasiyaya çevirmək lazım deyil. Belə məqamlarda dövlət öz vətəndaşının hüquqlarını böyük həssaslıqla qoruyur. Kimsə süni qiymət artımına yol verərsə, öz marağı çərçivəsində çıxış edərsə, bunun qarşısı dövlət tərəfindən alınmalıdır və alınacaq".

Qurum rəsmisi əlavə edib ki, bütövlükdə Tarif Şurası hər hansı bir qərar üzərində işləyərkən, ilk növbədə həmin qərarın təhlilini aparır və sonra yekun nəticəyə gəlinir: "Əgər nəzərə alsaq ki, dövlət başçısı, Prezident İlham Əliyev cənabları xalqın sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi addımlar atır, dövlətimiz bu və ya digər şəkildə mühüm sosial layihələr reallaşdırır, bu zaman mövcud qiymət dəyişikliklərində heç bir problemin olmadığını əminliklə deyə bilərik".

# Elman Rüstəmov: Tarif Şurasının nəqliyyatda qiymət artımı ilə bağlı qərarının inflyasiyaya təsiri minimal olacaq

Tarif Şurasının nəqliyyatda qiymət artımı ilə bağlı qərarının inflyasiyaya təsiri minimal olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın sədri Elman Rüstəmov mətbuat konfransında bildirib.

Mərkəzi Bankın sədri deyib: "Tarif Şurasının nəqliyyatda qiymət artımı ilə bağlı son qərarının inflyasiyaya bir qədər yüksəldici təsiri var. Düşünmürük ki, bu qərar bütövlükdə inflyasiyanın hədəf dəhlizindən (6-8 faiz) kənarlaşdıra bilər. Hesab edirik ki, təsiri çox minimal olacaq. İnflyasiyanın əsas amili məzənnə sabitliyidi. Biz məzənnə gözləntilərini sabitləşdirəndən sonra inflyasiya sabitliyinə nail olduq. Eyni zamanda, pul kütləsinin optimal formalaşmasına nail olmuşuq. Bu da inflyasiyanın idarə olunmasında mühüm rol oynayıb".



# Lavrov: "Ermənistanda baş verənlər bizi narahat etməyə bilməz"



Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, Ermənistanda cərəyan edən hadisələr ölkənin yeni rəhbərliyinin bəyanatları ilə üst-üstə düşmür. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, Ermənistanın sabiq prezidenti Robert Köçəryanın həbsi ətrafında yaranmış vəziyyəti şərh edən Rusiya xarici siyasət idarəsinin rəhbəri Moskvanın həmişə bu ölkədə sabitliyin bərqərar olmasında maraqlı olduğunu vurğulayıb. Ermənistanın yeni rəhbərliyinin siyasətini tənqid edən S.Lavrov deyib: "Orada baş verənlər, o cümlədən MDB məkanında Ermənistanın iştirak etdiyi təşkilatların normal fəaliyyəti məsələləri nöqteyi-nəzərindən gedən proseslər bizi narahat etməyə bilməz".

S.Lavrov deyib ki, son günlər Rusiya tərəfi bir neçə dəfə öz narahatlığını Ermənistan rəhbərliyinə çatdırıb. O, ümidvar olduğunu bildirib ki, vəziyyət "hər halda konstruktiv məcrada davam edəcək".

Rusiyanın xarici işlər nazirinin sözlərinə görə, bu ilin mayında Ermənistanda baş verən siyasi böhran zamanı Moskvada məmnunluqla qeyd edirdilər ki, bütün siyasi partiyaların iştirakı ilə kompromis əldə olunub və ölkənin yeni rəhbərliyi milli həmrəyliyi möhkəmləndirməkdə davam edəcək. "Lakin son günlər baş verən hadisələr bu müsbət proqnozları açıq-aşkar yox edir və Ermənistanın yeni rəhbərliyinin öz sələflərini siyasi motivlərə görə təqib etməyəcəyi barədə bu yaxınlarda verdiyi bəyanatlara tamamilə ziddir", - deyə S.Lavrov sözlərinə yekun vurub.

# Əbülfəs Qarayev: Qəbələ Beynəlxalq Musiqi Festivalına maraq ildən-ilə daha da artır

***X*** ***Qəbələ Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondunun təşkilatçılığı ilə artıq öz işinə başlayıb. İldən-ilə bu festivalın səviyyəsi, tamaşaçılar tərəfindən ona göstərilən diqqət və maraq artmaqdadır. İlk illərdə bu təşəbbüs irəli sürüləndə kimsə düşünmürdü ki, dünya musiqisi cədvəlində Qəbələ adı belə möhkəm həkk olunaraq böyük tamaşaçı auditoriyasının diqqətini çəkəcək.***



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri festivalın açılış mərasimində jurnalistlərə müsahibəsində mədəniyyət naziri Əbülfəs Qarayev deyib.

Nazir bildirib ki, ötən illər ərzində şəxsən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın himayəsi, dəstəyi və təşkilatçılığı sayəsində dünya miqyasında əsas musiqi kollektivlərinin Qəbələyə gəlməsinə imkan yaranıb. London, Yohanesburq, İsrail, Rusiya, Fransa, İtaliya və digər ölkələrin aparıcı musiqi kollektivləri Qəbələyə gəlib. "Hesab edirəm ki, bu, öz-özlüyündə bir göstəricidir. İlbəil genişlənən beynəlxalq auditoriya məhz Qəbələyə mədəni turizm məqsədləri üçün gəlməkdədir və bu, bizi olduqca sevindirir", - deyə Əbülfəs Qarayev qeyd edib.

# XİN rəsmisi: "Azərbaycan üzərinə götürdüyü öhdəliklərinə tam sadiqdir"

"Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində 1 avqust 1975-ci ildə Helsinki Yekun Aktı qəbul edilib. Helsinki Yekun Aktı xüsusilə dövlətlərarası münasibətləri tənzimləyən, Avropada sülh və təhlükəsizliyin qorunmasına xidmət edən 10 fundamental prinsipi (Decalogue) müəyyən edib". Bunu SİA-ya açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Helsinki Yekun Aktının qəbul edilməsinin 43-cü ildönümü ilə əlaqədar məsələyə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, 1992-ci ilin yanvarında Azərbaycan Respublikası ATƏM-in üzvü olub və Azərbaycan Helsinki Yekun Aktı əsasında üzərinə götürdüyü öhdəliklərinə tam sadiqdir: "Təsisatlanma prosesinin tərkib hissəsi olaraq ATƏM 1994-cü il dövlət və hökumət başçılarının Budapeşt Sammitinin qərarı ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı adlandırılıb. Helsinki Yekun Aktı güc yolu ilə ərazi əldə edilməsini qadağan edib. Sənədə görə gücdən istifadə olunmaması prinsipi bilavasitə sərhədlərin zorla dəyişdirilməsinin qəbuledilməzliyi ilə bağlıdır. Bu məqsədlə Helskin Yekun Aktı BMT Nizamnaməsinin 2(4) bəndini genişləndirərək ərazi bütövlüyü prinsipini xüsusi vurğulamaq üçün ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və gücdən istifadə edilməməsini ayrı prinsiplər kimi kodifikasiya edib. Nəticə etibarilə, bunlar Helsinki Yekun Aktında ərazi bütövlüyü fundamental normasından irəli gələn ardıcıl prinsiplər kimi müəyyən olunub. Helsinki Yekun Aktının 8-ci bəndi isə öz müqqəddəratını təyin etmə prinsipinin BMT Nizamnaməsi, beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə ərazi bütövlüyünə uyğun şəkildə ifadə edilməsini təsbit edib.

ATƏT üzv dövləti olaraq Ermənistan Respublikası Helsinki Yekun Aktı ilə üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq gücdən istifadə etməklə Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf regionlarını işğal edib. İşğal edilmiş ərazilərdə mülki Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə törədib. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu Azərbaycana qarşı gücdən istifadə etmək və gücdən istifadə etməklə hədələmək siyasətinin davamıdır.



Ermənistan Azərbaycana qarşı qeyri-qanuni əməllərini, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı güc tətbiq etmə və ya güclə hədələmə, işğal olunmuş ərazilərin ilhaqı cəhdləri və əhalinin zorla öz doğma yurdlarından qovulması kimi beynəlxalq hüquqa zidd hərəkətlərini ört-basdır etmək məqsədilə Helsinki Yekun Aktında təsbit olunan xalqların bərabər hüquqluluğu və öz müqəddəratını təyin etmə prinsiplərini hər vəchlə təhrif edir. Helsinki Prinsiplərinin və ATƏT-in digər öhdəliklərinin Ermənistan tərəfindən pozulması, bu prinsiplərin tətbiqində seçimli yanaşma və ikili standartlara yol verilməsi Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllinin uzanmasına və nəticə etibarilə, gərginlik riskinin saxlanmasına səbəb olur. 1995-ci ilə aid müvafiq ATƏT sənədində qeyd olunduğu kimi, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin mandatının əsasını da BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə bərabər Helsinki Yekun Aktı təşkil edir. Helsinki Yekun Aktının 43-cü ildönümü münasibətilə bütün ATƏT üzv dövlətlərini Ermənistandan Helsinki Yekun Aktı əsasında üzərinə götürdüyü öhdəliklərinə əməl etməsi, Azərbaycana qarşı gücdən istifadəyə son qoyması və öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmasını qəti və birmənalı şəkildə tələb etməyə israrla çağırırıq. Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə uyğun olaraq, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini təmin edəcəkdir".

# "Cənub Qaz Dəhlizi": dörd nəhəng seqmenti birləşdirən qlobal layihə

***TANAP-ın istifadəyə verilməsi Azərbaycanın neft-qaz sənayesinin ən önəmli hadisələrindən biri kimi tarixə düşdü. TANAP-ın işə düşməsi Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. TANAP elə bir qlobal layihədir ki, təkcə ölkəmiz üçün deyil, həm də region və Avrasiya məkanı üçün mühüm əhəmiyyət daşıyır. Çünki TANAP möhkəm bünövrəyə əsaslanır. Bu layihənin həyata keçirilməsi ideyasını irəli sürərkən Azərbaycan artıq Bakı-Supsa, Bakı-Novorossiysk, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişindəki zəngin təcrübəyə əsaslanmışdır. Üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçən BTC kimi nəhəng bir kəmərin inşası regionda möhkəm tərəfdaşlıq formatının əsasını qoymuşdur. Daha sonra BTC ilə yanaşı çəkilən Bakı-Tbilisi-Ərzurum kəməri geniş dəhlizlərə yol açmışdır. Bu gün Azərbaycanın liderliyi ilə gerçəkləşən "Cənub Qaz Dəhlizi"nin təməli də əslində elə bu kəmərlə qoyulmuşdur.***




Təsadüfi deyil ki, bu il iyunun 12-də TANAP-ın istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, məhz bu məqamı vurğulayaraq demişdir: "TANAP ilə Xəzər qazı ilk dəfə Avropaya çatacaq. Şübhəsiz, Xəzər hövzəsindəki zəngin enerji ehtiyatlarının Avropaya nəqli fikrinin yeni olmadığını hamımız bilirik. Daha əvvəl bu məqsədlə bir sıra nəhəng layihələr həyata keçirmişik. Bu yola Bakı-Tbilisi-Ceyhan xam neft boru kəmərinin inşası ilə başladıq. "Əsrin layihəsi" adlandırılan Bakı-Tbilisi-Ceyhan kəməri daha sonrakı fəaliyyətlərin də başlanğıcı oldu. Azərbaycan və Gürcüstan ilə strateji tərəfdaşlığımız ölkəmizə ilk dəfə Azərbaycan qazını gətirən Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihəsi ilə davam etdi".



İndi Azərbaycan yeddi ölkənin mavi yanacağa olan ehtiyacının önəmli bir hissəsini ödəyəcək möhtəşəm qaz dəhlizi çəkir. Ölkəmiz bu genişmiqyaslı işi yaratdığı möhkəm əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində həyata keçirir. "Cənub Qaz Dəhlizi"ndə yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya iştirak edirlər. Gələcəkdə layihəyə üç Balkan ölkəsinin qoşulacağı da gözlənilir. "Cənub Qafqaz Dəhlizi"nin daha sonra bir sıra digər ölkələrə də qaz ötürəcəyi istisna edilmir.

"Cənub Qaz Dəhlizi"nin qloballığı ondadır ki, dörd seqmentinin hərəsi nəhəng bir layihədir. Birinci seqment "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsidir. Xəzərdən sualtı xətlərlə Səngəçala çatdırılan "Şahdəniz" qazını oradan Azərbaycan-Gürcüstan sərhədinə qədər nəql edən Cənubi Qafqaz Boru Kəməri (CQBK) dəhlizin ikinci seqmentini təşkil edir. Üçüncü seqment TANAP-dır və onun da əvvəlki iki hissə kimi artıq gerçəkliyə çevrilməsi "Cənub Qaz Dəhlizi"nin uğurla icra olunacağına inamı daha da artırır. Belə ki, TANAP-dan qazı qəbul edəcək TAP-ın (Transadriatik Qaz Boru Kəməri) tikintisi də rəvan gedir, orada işlərin 72 faizi tamamlanıb.

Bir tərəfi CQBK-ya, digər tərəfi TAP-a bağlanan TANAP "Cənub Qaz Dəhlizi"nin ən böyük hissəsidir. TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin dövlət başçılarının birgə səyləri ilə həyata keçirilən layihədir. Odur ki, kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin növbəti bariz nümunəsini əks etdirir. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bunu bir daha vurğulamışdır: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir. Bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".



TANAP Türkiyənin ərazisi ilə 1850 kilometr məsafə boyu uzanır. Bu o deməkdir ki, TANAP Türkiyənin, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. Kəmər Türkiyənin 20 vilayətindən, 67 rayonundan və Çanaqqala boğazında suyun altından keçir. TANAP-ın tikinti obyektlərində çoxsaylı iş yerləri açılmışdır ki, bu da həmin bölgələrin sakinləri üçün geniş məşğulluq imkanları yaratmışdır.

Bir sözlə, TANAP Türkiyəni regional enerji xətlərinin mərkəzinə çevirmək missiyasına bir addım da yaxınlaşdırmışdır.

Kəmərin açılışında iştirak edən bir sıra ölkə başçıları və mötəbər qurumların rəhbərləri də TANAP-ın istifadəyə verilməsinin "Cənub Qaz Dəhlizi"nin reallaşmasında mühüm amillərdən biri olduğunu bildirmişlər. Şimali Kipr xalqlarının lideri Mustafa Akıncı demişdir: "TANAP layihəsi zamanımızın mütərəqqi əməkdaşlığına yaxşı bir nümunədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq Türkiyəyə və oradan da Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin yaranmasına da töhfə verəcək".

Serbiya Prezidenti Aleksandr Vuçiç Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən bu layihənin Cənub-Şərqi Avropanın tərəqqisində mühüm rol oynayacağını, bu regiona yeni investorların gəlişinə təsir göstərəcəyini və Serbiyanın da inkişafına töhfə verəcəyini demişdir.

Ukrayna Prezidenti Petro Poroşenko layihənin uğurla icra olunmasında Azərbaycanın və Türkiyənin dövlət başçılarının xidmətlərini xüsusi qeyd etmişdir: "Azərbaycanın və Türkiyənin birgə qətiyyəti, eləcə də, digər Avropa ölkələrinin töhfəsi sayəsində "Cənub Qaz Dəhlizi"nin bu aparıcı seqmenti tamamlanıb. Bundan sonra bütün region enerji təhlükəsizliyi perspektivlərinin genişlənməsindən faydalana biləcək".

Əsas hissələrindən biri TANAP olan "Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin həm də milli təhlükəsizliyi məsələsidir. "Cənub qaz dəhlizi"nin önəmi həm enerji təhlükəsizliyində, həm də enerji ehtiyatlarının şaxələndirilməsindədir. "Cənub Qaz Dəhlizi" vasitəsilə Azərbaycan qazı yeni marşrutlarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaq.

***"Səs" Analitik Qrupu***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 fevral 2014-cü il

# Azərbaycan-Fransa münasibətləri: Prezidentin Paris səfərinin işığında

***Dövlətimizin başçısı İlham Əliyevin Fransaya səfəri ilə bağlı analizlər davam edir. Müxtəlif "beyin mərkəzləri" və KİV orqanları bunun arxasında dayanan məqamları müəyyənləşdirməyə çalışırlar. Məsələnin geosiyasi aspektinə xüsusi diqqət yetirilir. Bunlar da səbəbsiz deyil. Çünki İlham Əliyevin Parisdə müzakirə etdiyi problemlər və əməkdaşlıqla bağlı əldə etdiyi nailiyyətlər regional və qlobal miqyasda geosiyasi əhəmiyyəti olan məqamlarla sıx bağlıdır. Burada həm Avropanın böyük dövlətlərindən biri ilə Cənubi Qafqazın lider ölkəsi arasında qarşılıqlı münasibətlərin gələcək inkişaf istiqamətlərinin nəzəri aspektləri aktualdır, həm də həmin prosesin bütövlükdə qlobal geosiyasi mənzərəyə mümkün təsirləri məsələsi əhəmiyyətlidir. Bunların fonunda Fransa səfərinə Ermənistanın qısqanc münasibətinin müxtəlif cəhətləri maraq doğurur. Həmin kontekstdə biz səfərin geosiyasi təhlilini vacib hesab edirik.***




## Parisin seçimi: Azərbaycanın uğurları fonunda

Fransa Avropanın böyük dövlətlərindəndir. Ənənəvi olaraq Parisin Avropa və dünya siyasətinə ciddi təsiri olub. Avropa İttifaqı çərçivəsində də Fransa Almaniya ilə birlikdə təşkilata liderlik edir. Demək olar ki, bütün prinsipial məsələlərdə Paris-Berlin tandemi həlledici sözü deyir. Bu vəziyyətə hətta Aİ daxilində bir etiraz dalğası meydana gəlmişdi. İki böyük dövlətin dominant rolunu digər üzvlər normal qəbul etmirlər.

Buna baxmayaraq, Parisin Avropa və dünya işlərində rolunu qoruyub saxlaması müşahidə edilir. Xüsusilə Emmanuel Makronun prezident seçilməsi ilə bu məsələyə Paris daha çox diqqət yetirir. Hətta Fransanın yeni prezidenti fəaliyyətinə qlobal geosiyasi proseslərdə, o cümlədən Yaxın Şərqdə təşəbbüsü ələ almaqla başlamışdı. İndi də həmin istiqamətdə Parisin cəhdləri davam edir. O, dünyanın digər geosiyasi gücləri ilə rəqabətdə milli maraqların təmin edilməsinə çalışır.

Fransanın Cənubi Qafqazda da fəal olması şübhə doğurmur. Ayrıca, bu dövlət ABŞ və Rusiya ilə birgə ATƏT-in Minsk qrupunun həmsədridir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olur. Parisin İrəvana təsir imkanları haqqında da xüsusi danışmaq mümkündür. Ənənəvi olaraq Fransada erməni diasporu mövcud olub və onun rəsmi İrəvana təsiri az deyil.

Fransa Azərbaycanla enerji sahəsində əməkdaşlıq edən böyük dövlətlərdəndir. "Total" şirkəti başlanğıcdan "Əsrin müqaviləsi"ndə yer alıb. Paris bir sıra başqa dövlətlərdən fərqli olaraq Azərbaycanla əməkdaşlıq imkanlarından istifadə edir. Məsələn, Almaniyadan daha aktiv surətdə enerji sferasında əlaqələri gücləndirir. Onunla bu istiqamətdə ancaq İtaliya yarışa bilər.

Fransanın Azərbaycanla münasibətlərində seçilən başqa məqam təyyarələr və peyklərlə bağlıdır. Azərbaycan kosmosa buraxdığı peykləri Fransadan alır. Fransa onlara start verir. Bu məsələyə görə Ermənistan hətta Fransadan küsüb. Ermənilər deyirlər ki, Azərbaycan Fransanın istehsal etdiyi peyklər vasitəsi ilə kosmosdan kəşfiyyat işləri aparır. Və buna rəsmi İrəvan sərt təpki göstərməlidir.

Fransa ilə Azərbaycan arasında hərbi-təhlükəsizlik sahəsində də əlaqələr vardır. Bu istiqamətdən çox isə mədəniyyət əlaqələri üstünlük təşkil edir. Heydər Əliyev Fondu Fransada çox maraqlı layihələr həyata keçirir. Bərpa işləri aparır, sərgilər təşkil edir, müxtəlif tədbirlər həyata keçirir. Artıq Fransanın mədəni həyatında Heydər Əliyev Fondunun özünəməxsus yeri və rolu vardır. Bu prosesin davam edəcəyi fikrində ekspertlər yekdildir.

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 19-20-də Fransaya səfərinin geosiyasi əhəmiyyətini konkret aspektdə dərk etməyə imkan verir. Təsadüfi deyil ki, bu səfərə dünya ekspertləri də ciddi maraq göstəriblər. Məsələn, rusiyalı ekspertlərin qənaətinə görə, Fransa artıq Cənubi Qafqazda əsas tərəfdaş kimi Azərbaycanı görür. Paris Bakı ilə çox müxtəlif sferaları əhatə edən əməkdaşlıq sənədləri imzalayır. Bunun əsas səbəbi kimi isə Azərbaycan rəhbərliyinin səmərəli xarici siyasət kursu göstərilir.

Doğrudan da, Azərbaycanda prezident seçkisindən dərhal sonra E.Makron İlham Əliyevi qələbəsi münasibəti ilə təbrik edib onu ölkəsinə səfərə dəvət etdi. Onda da ermənilər buna mənfi reaksiya verdilər. Onlar Azərbaycan-Fransa münasibətlərinin inkişafını qətiyyən arzulamır, Azərbaycanın Avropa ölkələri tərəfindən antidemokratik ölkə kimi tanınmasını istəyirlər. Lakin Paris nəinki erməniləri dinləmədi, hətta E.Makron İlham Əliyevlə görüşməyə böyük həmiyyət verdiyini ifadə etdi.

## Geosiyasi dinamika: Cənubi Qafqazın lideri ilə əməkdaşlığın əhəmiyyəti

Parisdə Azərbaycan Prezidentini təntənə ilə qarşıladılar. Geniş müzakirələr aparıldı. Azərbaycanla Fransanın 11 şirkəti arasında 2 milyard ABŞ dolları həcmində əməkdaşlıq müqavilələri imzalandı. Həmin şirkətlər kosmik fəzanın tədqiqi, müasir təyyarələr, təhsil, elm, mədəniyyət, ekoloji sfera, texnologiyalar, nəqliyyat, enerji və s. bu kimi bütün vacib sahələrdə çalışırlar. Onların sırasında məşhur Rotşildlərə bağlı şirkət də vardır. Məlumdur ki, Rotşild qardaşları Bakı neftinin istehsalında rol oynayıblar. Airbusların alışı və yeni texnologiyalar sahəsində əməkdaşlıq da ekspertlərin diqqətini çəkən məqamlardandır.

Bunlar onu təsdiq edir ki, Paris Azərbaycanla bütün sahələrdə əlaqələrini daha da genişləndirməkdə və intensivləşdirməkdə maraqlıdır. Fransa bu regionda Azərbaycana böyük önəm verir və onunla daha yaxın əməkdaşlığa can atır. Bununla da erməni təbliğatı növbəti dəfə iflasa uğramış olur. İrəvan bu səfərdən narahatlığını öncədən ifadə etmişdi. Parisə işarə edilirdi ki, görüş zamanı İlham Əliyevə Dağlıq Qarabağ məsələsində güzəştə getməsi üçün təzyiq göstərsinlər. Guya Paris bu üsulla Ermənistanı münaqişənin həllində düşdüyü ağır vəziyyətdən çıxara biləcək.

Lakin İlham Əliyevin Emmanuel Makron və Fransanın digər rəsmi şəxsləri ilə görüşündə tamamilə fərqli mənzərənin yarandığı aydın oldu. Tərəflər ancaq qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər və ortaq razılıqlar əldə olundu. Dağlıq Qarabağ məsələsinə gəldikdə isə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üzərində dayanıldı. Bu aspektdə danışıqların formatında Ermənistanın istəyinə uyğun hansısa dəyişikliyin qəbuledilməzliyi vurğulandı. ATƏT-in Minsk qrupu formatına əməl olunması zərurəti vurğulandı.

Təbii ki, rəsmi Bakı həmin kontekstdə məsələnin digər tərəfinin də əhəmiyyətini başa düşür. Söhbət ondan gedir ki, həmsədrlər uzun illərdir ki, tutarlı bir iş görmürlər. Buna görə də onların fəaliyyətində dəyişikliklər olmalıdır. Konkret olaraq həmsədrlər fəallaşmalı, təcavüzkara kim olduğunu açıq deməklə, işğal altındakı Azərbaycan torpaqlarından onun çəkilməsini tələb etməlidirlər. Yalnız bu halda Minsk qrupu danışıqların formatı kimi dəyişməz qala bilər. Əgər bu vəziyyət yaranmasa, onda Azərbaycanın təşəbbüsü ilə formatda yenilik ola bilər. Məsələn, müsəlman dövlətlərindən də həmsədrliyə qəbul edilənlər ola bilər.

Lakin hələlik hazırkı format mövcuddur və erməni separatçı-terrorçuların təmsilçilərinin buraya daxil edilməsi mümkün deyildir. Dağlıq Qarabağ onların vətəni deyil, əsl yurd sahibləri öz evlərindən qovublar. Danışıqlarda məhz onlar iştirak etməlidirlər.

Beləliklə, Prezident İlham Əliyevin Fransa rəhbərliyi ilə apardığı müzakirələr bir daha göstərdi ki, Azərbaycanın Cənubi Qafqazda lider dövlət olması dünya tərəfindən nəinki qəbul edilir, hətta böyük dövlətlər onunla əməkdaşlıq üçün ciddi maraq göstərirlər. Konkret olaraq Fransa ilə imzalanan yeni sazişlər ikitərəfli əlaqələrin perspektivlərini bir daha ortaya qoyur. Üstəlik, Azərbaycanın beynəlxalq layihələrdə əhəmiyyətini təsdiqləyir.

Bu bağlılıqda İlham Əliyevin Fransaya səfəri Azərbaycanın beynəlxalq layihələrdəki statusunun daha da yüksəldiyinin əyani sübutu oldu. Belə ki, Paris Azərbaycanla əməkdaşlığa birbaşa qlobal kontekstdə yanaşır. Bu mənada hətta o, digər böyük dövlətlərlə nüfuz yarışına girməyi də göz önünə alır. Fransa Azərbaycanın dünyada artan geosiyasi əhəmiyyətini çox yaxşı başa düşür. Bunun fonunda Parisin Ermənistan siyasəti maraq doğurur.

Yeni Fransanın ermənilərlə ənənəvi münasibətlərini davam etdirib-etdirməyəcəyi düşündürücüdür. Hazırda Ermənistan bütün arqumentlərini itirmiş durumdadır. Reallıq Azərbaycanın haqlı olduğunu hər kəsə sübut edir. Getdikcə Ermənistanın təcavüzkarlığının regionda sülh, barış, əməkdaşlıq və inkişafa əsas maneə olduğu daha da aydınlaşır.

Bütün bunlar qlobal geosiyasətdə dinamikanın xeyli intensivləşməsi və ümumi mənzərənin mürəkkəbləşməsi fonunda baş verir. Ermənistan bu səviyyədə cərəyan edən proseslər üçün çox kiçik faktordur. Böyük dövlətlər həyati məsələlərdə erməniləri nəzərə almaya bilərlər. Bəs Fransa hansı kursu seçəcək? Cənubi Qafqazın gələcəyini Paris necə görür?

***Newtimes.az***

# Dağbəyi İsmayılov -70

*Bilmirəm biz tələsirik, yoxsa zaman tez keçir. Bir də gözümüzü açırıq ki, illər arxada qalıb, saçımıza dən düşüb, qayğılar alnımıza dağ cığırları kimi iz salıb. Hamı belədir, əvvəl-əvvəl heç kəs zamanın belə sürətlə ötəcəyinin fərqinə varmaz. Bir də görər ki, onillikləri arxada qoyub. Amma əsas odur ki, illəri boşa verməyəsən, ömrün müdrik çağından keçdiyin yola nəzər salanda qürurlanmağa, özünə təsəlli verib qəlbini ovutmağa nələrinsə olsun. Bu mənada onun həyat yolu heç də hədər ötməyib, bəlkə də çoxlarına örnək olası bir ömür hekayəsinə çevrilib.*

## Azərbaycan jurnalistikasının vicdanı

Haqqında sizlərə söhbət açmaq istədiyim AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini, Əməkdar jurnalist Dağbəyi İsmayılovun həyat hekayəsi də yazılmamış bir dastandır. Həmişə onun haqqında düşünəndə böyük dahilərdən birinin bu fikrini xatırlayıram: "İztirablar mübarizəyə çağırışdır, biz yalnız iztirablarımız zamanı həyatımızı hiss edirik".

Onunla ilk tanışlığım dünyanın bulanıq vaxtına düşdü. Azərbaycan Dövlət Nəşriyyatının dördüncü mərtəbəsində hər zaman xatirəsini ehtiramla andığım qocaman bir jurnalistlə söhbət edirdik. Bu zaman şux yerişli, ağsaçlı bir şəxs bizimlə səmimi və hörmətlə salamlaşdı. O, bizdən uzaqlaşandan sonra mənim marağımı görən həmin qocaman jurnalist dedi: "Görünür Dağbəyi İsmayılovu tanımadın, o Azərbaycan jurnalistikasının vicdanıdır".

Onun haqqında belə yüksək fikri eşidəndə maraq məni götürdü. Kimdən soruşdumsa Dağbəyi İsmayılov haqqında birmənalı olaraq yüksək fikir söylədi. Tale elə gətirdi ki, onunla AZƏRTAC-da bir yerdə işləyəsi oldum. Sadəliyi, işinə olduqca böyük məsuliyyətlə yanaşması, xüsusilə də gənclərə diqqəti deyilənlərin heç də əbəs olmadığını bir daha təsdiqlədi.

Mənəvi keyfiyyətləri ilə seçilən kamil insanlar dünyagörüşü, sözü, fikri, düşüncə tərzi ilə həm də yetişdikləri mühiti və ailəni, bəzən isə zamanı qabaqlayaraq gələcəyi ifadə edirlər. Yəni, insan xarakterinin formalaşmasında onun doğulub boya-başa çatdığı, suyunu-çörəyini daddığı, havasını udduğu təbiətin, habelə ətrafa olunduğu ictimai, elmi-mədəni mühitin da rolu az deyil. Dağbəyi İsmayılovun mənalı ömür yoluna nəzər salanda bu həyat həqiqəti bir daha təsdiqini tapır.

Dağbəyi İsmayılov 1948-ci il avqustun 1-də Qubadlı rayonunun Çərəli kəndində dünyaya göz açıb. 1966-cı ildə Qubadlı qəsəbə orta məktəbini, 1968-ci ildə Naxçıvan Pedaqoji Məktəbini bitirib. 1968-1970-ci illərdə öz kəndlərindəki orta məktəbdə müəllim işləyib. 1970-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində ali təhsil alıb. Qırx ildən artıqdır ki, mətbuatda çalışır. 1975-ci il avqustun 1-dən 2002-ci il noyabrın 15-dək "Bakı" və "Baku" qəzetlərinin redaksiyasında müxbir, şöbə müdiri və baş redaktorun müavini vəzifələrində işləyib.

Sözün bu məqamında qeyd etmək yerinə düşər ki, Azərbaycan mətbuatının tanınmış simalarından biri olan Nəsir İmanquliyevin 30 il rəhbərlik etdiyi "Bakı" və "Baku" axşam qəzetləri o dövrün digər mətbu nəşrləri üçün örnək olub. Nəsir müəllim yüzlərlə gənc jurnalistə bu peşənin sirlərini öyrədib. Bu sırada Dağbəyi İsmayılovun da adı var. Hörmətli müəlliminin istək və arzusu ilə "Bakı" və "Baku" axşam qəzetlərində işə başlayan Dağbəyi İsmayılov təkcə ona olan inamı doğrultmayıb, əksinə, özü də neçə-neçə gəncə sənətin sirlərini öyrədib və hazırda da bu işi uğurla davam etdirməkdədir.

Dağbəyi İsmayılov 2002-ci il noyabrın 15-də AZƏRTAC-a buraxılış redaktoru vəzifəsinə təyin olunub. 2003-cü il yanvarın 6-dan 2005-ci il fevralın 2-dək agentlikdə baş redaktor vəzifəsində fəaliyyət göstərib. 2005-ci il fevralın 3-dən 2008-ci il fevralın 1-dək agentliyin baş direktorunun müavini vəzifəsini icra edib. 2008-ci il fevralın 1-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə AZƏRTAC-ın baş direktorunun müavini təyin olunub.

Yubilyarımız ötən illər ərzində öz savadı, redaktorluq qabiliyyəti, yazı üslubu, peşəkarlığı və ən əsası, işinə sonsuz sevgisi ilə kollektivin böyük hörmətini qazanıb. 1977-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan Dağbəyi İsmayılov 1982-ci ildə həmin təşkilatın "Qızıl qələm" mükafatına layiq görülüb. O, "Heydər Əliyev və AZƏRTAC", "AZƏRTAC-dan AZƏRTAC-a mürəkkəb və şərəfli yol" kitablarının, eləcə də Azərbaycan mətbuatının problemləri ilə bağlı məqalələrin müəllifi, çoxsaylı kitabların redaktorudur. Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Tərəqqi" medalına və "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

Dağbəyi İsmayılovun mətbuatda ilk böyük yazısı "Azərbaycan gəncləri" qəzetində dərc olunub. Metronun "Elmlər Akademiyası" stansiyasında tunelin qazılmasından bəhs edən yazını hazırlayarkən D.İsmayılov universitetin 4-cü kursunda oxuyurmuş. Yubilyar o günləri belə xatırlayır: "Mənə tapşırıldı ki, yeni metro tunelinin qazılması ilə bağlı yazı hazırlayım. "Elmlər Akademiyası" stansiyası



çox çətinliklə qazılıb. Mən də tunelə düşüb iki saat iş prosesini müşahidə etdim. Hər şeyi gördüyümü deyə çox yaxşı, oxunaqlı bir yazı hazırlaya bildim. Bu yazı mənim üçün böyük önəm daşıyırdı. Ona görə ki, jurnalistikaya vizit kartım idi".

Bu gün Dağbəyi İsmayılov onu tanıyanlar tərəfindən Azərbaycan xalqının maraqlarını yüksək səviyyədə qorumağa qadir vətənpərvər insan, peşəkar jurnalist, xeyirxah vətəndaş kimi qəbul olunur. Onun əsl jurnalist kimi peşəkarlığı hər zaman öz sözünü deyir və informasiyaların yüksək keyfiyyətlə hazırlanıb operativ buraxılmasında böyük rol oynayır. O, Azərbaycan mətbuatında öz üslubunu yaratmış qələm adamlarındandır. Adətən jurnalist qələmini kotana bənzədirlər. "Kotan işlədikcə parıldadığı kimi, qələm də yazdıqca cilalanır" deyiminin haqq olduğuna D.İsmayılovun iş prosesini görənlər bir daha inanırlar.

Onun bir peşəkar kimi məharəti Azərbaycan dilindən yüksək səviyyədə istifadə bacarığı ilə bağlıdır. O, dilimizin bütün qrammatik qaydalarına riayət etməklə sözü ən yüksək məqamında, yerində, özü də lazım olduğu qədər işlədə bilir. Bu gün agentliyimizdə çalışan gənclər Dağbəyi müəllimdən çox şey öyrənirlər. Bu işdən onun özü də zövq alır. Axı, təcrübəli qələm adamı yaxşı bilir ki, jurnalistika elm deyil, peşədir. Peşəni isə kitab oxumaqla öyrənmək mümkün deyil.

Onun redaktor kimi əsas funksiyasından biri də əməkdaşların fərdi üslubunu agentliyin ümumi üslubuna uyğunlaşdırmasıdır. O, agentliyimizdə yüksək səviyyəli jurnalistlərin sayının çox olmasına çalışır. Uzun illər mətbuatda külüng vuran Dağbəyi İsmayılov yaxşı bilir ki, redaktoru peşəkar olmayan hər hansı bir media qurumunda peşəkar müxbirlər yetişə bilməz. Bütün toplantılarda onun gənc nəslə öyüd dolu müraciəti, bir ata qayğısından, işini sevən, ona can yandıran əsl qələm adamının məsuliyyətindən irəli gəlir.

Dağbəyi İsmayılov gənclərlə hər bir görüşündə bu fikirləri səsləndirir: "Elə yazılar hazırlayın ki, o yazılarda Azərbaycan dili öz gözəlliyi, oxunaqlılığı, şirinliyi, rəvanlığı ilə göz oxşasın. Elə yazın ki, Həsən bəy Zərdabinin, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Cəlilin, Sabirin ruhu inciməsin. Zəhmətdən qorxmayın, yazmaqdan usanmayın, çoxlu mütaliə edin. Hər şey insanın öz əlindədir, bu gün agentliyimizin rəhbərliyi tərəfindən sizlər üçün yaradılmış bu gözəl şəraitdən yetərincə faydalanın, təcrübəli qələm adamlarından öyrənməkdən utanmayın. Öyrənin ki, sizdən də öyrənsinlər".

Əsl jurnalist üçün vacib keyfiyyətlərdən biri də onun aydın mövqeyə sahib olması, taleyüklü məqamlarda xalqının mənafeyi baxımından ən doğru, dürüst olanı seçməsi, lazımi anda qətiyyət, cəsarət nümayiş etdirməsidir. Mənəvi dünyasının, vicdanının səsi Dağbəyi İsmayılovu təkcə özü üçün yaşamağa səsləməmişdir. O, əsl ziyalılara xas olan tərzdə dövrünün ictimai-siyasi hadisələrinə laqeyd yanaşmayıb. Fəaliyyətinin bütün mərhələlərində doğma Azərbaycanı, onun inkişafını, çiçəklənməsini düşünən Dağbəyi İsmayılov əsl vətənsevər kimi həm də Qarabağ müharibəsinin ilk günlərindən ürəkağrısı ilə erməni məkrinə, onların mənfur qəsbkarlıq siyasətinə müxtəlif səviyyələrdə etirazını və nifrətini bildirib, xalqına, torpağına dərindən bağlı bir azərbaycanlı kimi haqq səsini ucaldıb.

Yaxşı insan, böyük həyat yolu keçmiş Dağbəyi İsmayılov həm də gözəl ailə başçısıdır. O, övladlarını, nəvələrini hər zaman azərbaycançılıq havasında kökləyir və onların əsl vətəndaş kimi yetişməsinə çalışır. Onun torpaq sevgisi, doğma Qubadlı rayonuna, düşmən tapdağı altında inləyən yurd yerlərinə sonsuz məhəbbəti adi sözdə deyil, əməldə də özünü göstərib. O, torpaqlarımızın azadlığı uğrunda şəhid vermiş bir atadır. "Azərbaycan" qəzetində çalışmış, Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş Elgün İsmayılov məhz o ailədə dünyaya göz açaraq, əsl vətənpərvər kimi yetişmişdi.

AZƏRTAC-ın bütün kollektivi 70 illik yubileyi münasibətilə Dağbəyi İsmayılovu səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı arzulayır.

... Həmişə belədir, işə hamıdan tez gəlsə də hamıdan gec gedir. Ad günündə də belə idi. Çünki onun həyat amalı dəb-dəbədən çox-çox uzaqdır. O, işini, ona tapşırılmış vəzifəni yerinə yetirən, icra edən sadə bir əsgərdir. Hər zaman əmrə hazır olan, nizam-intizamlı, səliqəli bir əsgər. Məhz ona görə də ucala bilib, həm işdə, həm də onu tanıyanların qəlbində.

**Abdulla Suvar**
**AZƏRTAC-ın müxbiri**

## Qabil Hüseynli: "Azərbaycanın əlini qüvvətləndirən amillər çox olub"



"Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslər dalana dirənib. Danışıqlar prosesini irəliyə aparmaq üçün hələ ki pozitiv təkliflər yoxdur". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu ilin sentyabrında olacaq görüşü BMT Baş Assambleyasının növbəti sessiyası çərçivəsində Nyu-Yorkda olacaq: "Bu görüşdə XİN rəhbərləri danışıqlar prosesinin yenilənməsi və gündəmə çıxarılacaq məsələlərin dəqiqləşdirilməsi işini müzakirə etməlidirlər. Çünki Ermənistan indiyədək danışıqlara kifayət qədər əngəl yaradan addımlar atıb və danışıqlara qondarma Dağlıq Qarabağ Respublikasının cəlb edilməsi ilə hər şeyin sıfırdan başlaması kimi sərsəm ideya irəli sürüb. 20 ildən çoxdur ki, danışıqlar prosesi davam edir. Bu müddətdə razılaşdırılması lazım gələn məsələlərin 85-87 faizi razılaşdırılıb. Bunlar təfərrüatlı məsələlərdir. Nikol Paşinyan Ermənistanda hakimiyyətə gəldikdən sonra o Ermənistanın mövqeyini daha da sərtləşdirib. Eyni zamanda Azərbaycanın əlini qüvvətləndirən amillər də çox olub. Hər şeydən əvvəl BMT-dən tutmuş digər beynəlxalq təşkilatlara qədər Azərbaycanın ərazi bütövlüyü məsələsini tanımaları və münaqişənin də bu ərazi bütövlüyü çərçivəsində həll olunmasını istəməlidir. Azərbaycanın ərazi bütövlüyü məsələsində demək olar ki, aparıcı dövlətlərin hamısı eyni fikirdədir. Amma Rusiyanın mövqeyi bu məsələlərin həllində problem olaraq qalır. İndi Qərb dövlətlərinin, xüsusilə Avropa Birliyinin məsələyə münasibəti pozitiv istiqamətdə dəyişib və onlar təşəbbüsü ələ almağa çalışırlar".

# 120 yaşlı Azərbaycan kinosu

***Azərbaycan Milli Kino Günü artıq neçə illərdir ki, kinematoqrafçıların peşə bayramına çevrilib. Hər il ənənəvi olaraq 2 avqust tarixini kino işçiləri peşə bayramı kimi qeyd edir, yaratdıqları filmlərlə peşəkar səviyyədə olduqlarını nümayiş etdirirlər. Sözsüz ki, onların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir və müxtəlif fəxri adlar və mükafatlarla təltif olunurlar. Azərbaycanın müstəqillik əldə etməsi ilə kino işçilərinin də peşə bayramı 27 avqust tarixində deyil, məhz 2 avqust tarixində qeyd olunur. Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər. Təbii ki, yeni baxışlar, yeni quruluş cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən azalmışdır. Bununla belə, "Yarasa", "Özgə vaxtı" filmləri o illərin ən mükəmməl filmləri sırasındadır.***



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qayıdışı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında yeni bir dövrün başlanğıcı oldu. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını çıxışlarında xüsusi vurğulamışdır. Hələ 1970-80-ci illərdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi gündən respublikanın kino sənəti xadimlərindən məhəbbətini əsirgəmədi. Ulu Öndər Heydər Əliyev Azərbaycan kino sənətinin dəyərli ənənələrini yaşadan tarixi mövzuda çəkilmiş bir sıra bədii filmləri yüksək qiymətləndirmişdir. Azərbaycan kino sənətinin tarixini mükəmməl bilən Ümummilli Lider Heydər Əliyev, məhz bu ənənə üzərində kinematoqrafçıların fəaliyyət göstərməsini tövsiyə etmişdir. Bir əsrdən artıq tarixə malik olan Azərbaycan kinosunun keçdiyi yol hər kəsə yaxşı bəllidir. Belə ki, bu zəngin ənənəni qorumaq və inkişaf etdirmək sahəsində çox ciddi işlər görülməyə başladı.

Qeyd edək ki, Azərbaycan kino sənətinin tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və bir bədii kinosüjetdən - "İlişdin"dən ibarətdir. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynamışdır. 1916-cı ildə Bakıda Ü.Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə "Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi. 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən isə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından, neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 20-ci illərdə Azərbaycan kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən "Azərbaycan ekranı" kinojurnalı buraxılmağa başlandı.

### Azərbaycanda səsli kinoların istehsalına başlanıldı

30-cu illərin əvvəlində mövzusu müasir həyatdan alınmış, məişəti bədii şəkildə təsvir edən, eləcə də, tarixi-inqilabi mövzulu filmlər çəkilirdi. "Lətif", "İsmət", "Almaz" və "Yeni horizont" və s. bu məzmunlu filmlərdəndir. 1935-ci ildə "Azərfilm"in Moskvanın "Mejraypromfilm" kinostudiyası ilə birgə yaratdığı "Mavi dənizin sahilində" bədii filmi ilə Azərbaycanda səsli kino əsərlərinin istehsalına başlanıldı. 1936-1941-ci illərdə ekranlara 10-dan çox səsli film buraxılmışdır. Səsli kinonun yaranması ilə sənədli kinonun da yaradıcı imkanları genişləndi. "Adlı-sanlı Azərbaycan" birhissəli sənədli xronika kinoalmanaxında, ilk dəfə olaraq, diktor mətni oçerkin qəhrəmanlarının çıxışı ilə sinxron verilmişdir. 1939-cu ildən "Azərbaycan ekranı" kinojurnalı "Ordenli Azərbaycan" adı altında çıxmağa başladı. 30-cu illərin səssiz filmlərindən tammetrajlı "Şərqə yol" və "Azərbaycan incəsənəti" filmləri diqqətə layiqdir.

### Qəhrəman döyüşçülərimiz Azərbaycan kinematoqrafiyasında

İkinci Dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, M.F.Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi" vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə", müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmləri çəkilmişdir. Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş "Uzaq sahillərdə" filmi isə Azərbaycanın, eləcə də, keçmiş sovet kinosunun nailiyyətlərindəndir. Dinamik, gərgin hadisələr, dəqiqliklə verilmiş xarakterlər, operator və rejissor işinin yüksək səviyyəsi filmə geniş şöhrət qazandırmışdır. İkinci Dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək, əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar, kinooçerklər də yaradıldı. "Vətən uğrunda", "Qayğı", "Məktuba cavab", "Qardaş köməyi" və s. 1944-cü ildə "Bakı kinostudiyası" Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən "Xəzərlər" tammetrajlı sənədli filmini çəkdi. 1945-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı. Müharibədən sonrakı illərdə Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin 30 illiyi münasibətilə 1950-ci ildə "Sovet Azərbaycanı" rəngli tammetrajlı sənədli filmi yaradıldı. Film 1951-ci ildə Kann (Fransa) Beynəlxalq Kinofestivalının xüsusi mükafatına layiq görüldü.

### Azərbaycan kinosunda musiqili komediya janrına meyil

"Arşın mal alan" filmindən etibarən Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdi. "Görüş","Sevimli mahnı", "O olmasın, bu olsun", "Romeo mənim qonşumdur", "Əhməd haradadır?", "Ulduz", "Qaynana" və s. filmlərdə bu ənənə davam etdirilmişdir. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, "Bir cənub şəhərində" filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi, insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Baş müsahibə", "Var olun, qızlar", "Həyat bizi sınayır", "Xoşbəxtlik qayğıları" və s. filmləri göstərmək olar. 70-ci illərin sonralarında və 80-ci illərdə Azərbaycan kinosunda mənəvi-əxlaqi problemlərə diqqət daha da artmışdır. Rejissor R.Ocaqovun filmlərində mürəkkəb psixoloji vəziyyətlər, əsl insan ləyaqəti ilə əlaqədar müşahidələr, xudbinlik, sərtlik, mərhəmətsizliyə qarşı etiraz kimi mövzulara meyil güclüdür. 1970-ci ildən "Azərbaycanfilm" kinostudiyasında "Mozalan" satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gələnən qüsur və nöqsanlar tənqid atəşinə tutulur. İkinci Dünya müharibəsinədək Azərbaycanda cizgi filmləri çəkilməsinə yalnız təşəbbüs göstərilmişdir. 1966-cı ildə "Azərbaycanfilm"də rəssam və rejissor-multiplikator kursları açılmışdır. Həmin dövrdə "Azərbaycanfilm" kinostudiyası səsli, genişekranlı, panoram və genişformatlı filmlərdə səsin stereofonik yazılışını təmin edən yeni kino avadanlığı ilə təchiz olunmuşdur.

Müasir həyatımızda Azərbaycan kino sənəti inkişaf dövrünü yaşayır. Son illərdə çəkilən filmlər sırasında Azərbaycanın Ümummilli Liderinin geniş, hərtərəfli fəaliyyətindən bəhs edən film N.Səfərovun ssenarisi əsasında operator O.Şixəliyevin çəkdiyi "Hamıya nümunə olan ömür yolu" filmidir. Bu əsərdə Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır.

Bununla yanaşı, ssenari müəllifi və kinorejissor Vaqif Mustafayevin Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri diqqəti cəlb edir. Xüsusən, onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı "Heydər Əliyev" filminin 9-nu çəkib. Onlardan "Əsl məhəbbət haqqında" film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib.

Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin "Əsrin sazişi" filmində öz əksini tapmışdır.

Azərbaycanın kino sənətini davam etdirən rejissorlardan Hüseyn Mehdiyevin, Cavanşir Mehdiyevin, Yavər Rzayevin, Nicat Feyzullayevin, Ayaz Salayevin, Eldar Quliyevin, Rasim Ocaqovun, Oqtay Mirqasımovun filmləri mövzu baxımından maraqlıdır.

Azərbaycan kino sənətinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Kinonun inkişafı ilə bağlı aparılan islahatlar nəticəsini verməkdədir. Milli kino sənətimizə dövlət qayğısı olaraq hər il dövlət hesabına yeni filmlərin istehsalına başlanılır. Həmin filmlər festivallarda uğurla nümayiş olunaraq mükafatlar qazanır.

Bu il 120-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır.

***ZÜMRÜD***

# Dövlət sərhədini pozmaq istəyənlərin qarşısı alınıb







Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumatına görə, Dövlət Sərhəd Xidməti tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısının alınması, həmçinin, sərhədyanı ərazilərdə yabanı şəkildə bitən narkotik xassəli bitkilərin aşkarlanması istiqamətində tədbirlər davam etdirlir. 29 iyul 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonu ərazisindəki sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikası ərazisindən qaçaqmal yolu ilə 3 bağlamadan ibarət 6 qutuda 10 milliqramlıq flakonlarda 2000 ədəd psixotrop tərkibli "Mydrax" dərman preparatlarının dövlət sərhədini pozmaqla ölkə ərazisinə gətirilməsinin qarşısı alınıbdır. 28-31 iyul 2018-cı il tarixlərdə Daxili İşlər Nazirliyi ilə birgə həyata keçirilən tədbirlər nəticəsində Balakən rayonunun Gərəkli, Salban və Zaqatala rayonunun Maçex, Aşağı Tala, Danaçı, Muxax, Axaqdərə, Qax rayonunun Əlibəyli kənd ərazilərindəki meşə massivlərində 13796 ədəd ümumi çəkisi 9 ton 300 kq olan yabanı şəkildə bitən çətənə kolları aşkar olunub və müvafiq qaydada aktlaşdırılaraq, məhv edilibdir.

*R.HÜSEYNOVA*

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb



Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il avqustun 1-dək 92 milyon 819 min 877,45 manat, 213 min 577,88 ABŞ dolları, 11 min 936 avro və 5 min rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə təsis olunub. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# "Bu Paşinyanın təxribatıdır"



"Panik kəndindəki insident Paşinyanın ilk ciddi antiRusiya təxribatıdır". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Onun sözlərinə görə, Panik kəndində 102-ci hərbi bazanın kəşfiyyat rotasının hərbi təlimlər keçirməsinin ajiotaj yaratması süni qurulmuş məsələ idi:

I. Panik kəndi "Alagöz" poliqonunun yaxınlığındadır. Bu poliqonda hətta tankla, artilleriya ilə hərbi təlimlər keçirilir. Başqa sözlə, əhali daha gurultulu atəş səslərinə alışıblar. Öz qaydalarına uyğun 102-ci hərbi bazanın Alagöz təlim poliqonundan bir neçə yüz metr aralıda hərbi təlim keçirməsi daha məqsədə müvafiqdir.

II. 102-ci hərbi baza ilə Ermənistan hökuməti arasında imzalanmış müqaviləyə əsasən hərbi təlimlər barədə yerli əhalini məlumatlandırmaq Ermənistan hökumətinin işidir. Bu təlim kəşfiyyat xarakterli olduğu üçün müəyyən spesifiklik tələb edir. Əhalinin məlumatlandırılmasının da spesifik variantları tapıla bilərdi.

III. Ermənistanda Rusiya hərbi bazasına qarşı həssaslıq həmişə mövcud olub. Amma bu həssaslıq dalğavarı inkişafdadır. İndi həssaslıq artan fazadadır. RF-in Ermənistandakı səfiri istəsəydi həssaslığın artdığını görərdi. RF-in Ermənistandakı səfiri S.Kopırkin Panik hadisəsindən bir neçə gün öncə Gümrüdə olarkən hərbi texnikanın hərəkətinin dağıtdığı küçələrin bərpasını, hərbi bazanın bərpasını, hərbi bazanın binasının şəhər meriyasının balansına verilməsinin çətinlikləri müzakirə edildi. Gümrü şəhəri hərbi şəhərciyi qaz və su təchizatını öz üzərinə götürə bilmir. RF səfiri S.Kopırkinin Gümrüdə apardığı danışıqlar Ermənistan tərəfinin narazı olduğunu üzə çıxardı. Mitinq abı-havasının qüvvədən düşmədiyi Ermənistanda rusiyalı diplomat hansısa təxribatın hazırlandığını görməli idi. RF hərbi hissəsini qaydalara daha ciddi əməl etməyə çağırmalı idi.

Panik kəndində baş verənləri baş nazir N. Paşinyan Rusiya-Ermənistan münasibətlərinə və Ermənistanın suverenliyinə qarşı təxribat kimi dəyərləndirdi. Bəzi ekspertlər (Moskvada yaşayan İranşünas K.Gevorkyan) bunu hətta N.Paşinyana qarşı təxribat kimi dəyərləndirdilər. Belə məsələlərdə kifayət qədər təcrübəsi olan köhnə hakimiyyətin təmsilçisi, Ermənistan parlamentinin beynəlxalq münasibətlər komissiyasının sədri A.Aşotyan bu işi tez ört-basdır etməyə çağırsa da N.Paşinyan öz yolunu davam etdirdi.

Sonradan D.Tonoyan 102-ci hərbi bazanın rəhbərliyi ilə görüşdü, hər iki tərəfin səhvinin olduğunu bildirdi. Əhalinin diqqətinə Rusiyanın yaxında kreditlə 200 milyon dollarlıq silah verdiyini yada saldı. D.Tonoyanın məqsədi məsələni böyütmək idi, böyütdü. Yəqin tapşırığı belə almışdı. Bilərəkdən və ya təsadüfən 102-ci hərbi baza ilə imzalanmış müqaviləyə yenidən baxılması məsələsini gündəliyə gətirdi. Bu Rusiya mətbuatında Rusiya sərhədçiləri ilə olan müqaviləyə yenidən baxılması kimi işıqlandırıldı".

# Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri ləğv edilərək Dövlət Aqrar İnkişaf mərkəzləri yaradılıb



Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin institusional fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər və "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanına əsasən Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri ləğv edilərək Dövlət Aqrar İnkişaf mərkəzləri yaradılıb.

Bunu AZƏRTAC-a şərh edən Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Anar Hüseynov deyib:

"Prezident İlham Əliyev ölkədə həyata keçirdiyi aqrar islahatlar çərçivəsində növbəti Fərman imzalayıb. Bununla da Azərbaycanda aqrar islahatların yeni mərhələsinin başlandığını söyləmək olar. Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri ləğv edilib, onların əsasında Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) yaradılıb. DAİM-in yaradılmasında məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır."

## İtaliya prezidenti: İtaliya Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün hər cür səy göstərəcək



İtaliya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün hər cür səy göstərəcək. Trend-in Ermənistan KİV-nə istinadən məlumatına görə, bu barədə İtaliya prezidenti Sercio Mattarella Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdə bildirib. S.Mattarella qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi hərbi həll yoluna malik ola bilməz, münaqişə yalnız siyasi yolla həll olunmalıdır.

Prezident vurğulayıb ki, İtaliya ATƏT-ə sədrlik dövründə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasətin balanslaşdırılmasına davam edəcək, o cümlədən ATƏT-in Minsk Qrupunda həmsədrlik çərçivəsində münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərəcək.

# Alqı-satqı mütəxəssisi

*Tarix Əli Kərimli və onun müdafiəçilərinin kimliyini unutmayacaq*

Tarixən satqınlıq əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə satqınlıq etmək adi bir şey olub. Məhz satqınlara da yalnız satqınlar dəstək veriblər ki, bu da "taylı tayını tapar" məsəlində olduğu kimidir. Bu baxımdan, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü, sabiq deputat Gültəkin Hacıbəylinin Facebook səhifəsində yenidən görünməsi də təsadüfi deyil. Tarif Şurasının metro və nəqliyyatda sərnişinlərdə qiymətlərin artırılması ilə bağlı qərarı məsələsində AXCP sədri Əli Kərimlinin anormal fikirlərinə dəstək olması və keçmiş AXCP-çi Razi Nurullayeva qarşı çıxaraq onu "satın alınan" adlanması da heç də təsadüfi sayıla bilməz.

Təbii ki, onun bu statusuna dərhal reaksiya verən R.Nurullayev bildirib ki, bu o G.Hacıbəylidir ki, "başqalarının fikirləri" ilə "fədakarlıq" edərək alqı-satqı mütəxəssisi üzrə püxtələşib".



R.Nurullayev onu da qeyd edib ki, G.Hacıbəyli vaxtilə hakimiyyətə yaltaqlanan bir adam olub: "İndi də Ə.Kərimlinin yanında bu funksiyasını icra edir, "canfəşanlıq" göstərir. G.Hacıbəylinin Ə.Kərimliyə qarşı bu qədər sevgisi varsa, o zaman onu inandırsın ki, səhv yoldadır və AXCP-dən istefa verib getməlidir. Ancaq neyləmək olar ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Bu şəxsin mahiyyəti və xisləti, məhz satılmağa köklənib və G.Hacıbəyli ilə bir bezin qırağıdırlar. Bazar jarqonu ilə danışan G.Hacıbəyli alınıb-satılmağı gözəl bilən adamdır və görünür alqı-satqı obyekti olaraq çox işlədilib. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə Azərbaycan hakimiyyəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duyurlar".

### Haqq-nahaqı anlamazlar...

G.Hacıbəyli çıxışlarına diqqət yetirsək, haqq yolundan daha çox dəm vurur. Fikirləşirsən ki, bu, o bədbəxt adamdır ki, hələ də haqla nahaqı bu günəcən ayırd edə bilməyib... Sən "haqq" deyəndə fikirləşirsən ki, bundan necə öz məqsədlərin üçün istifadə edə bilərsən. Sən təkcə güzgüdə yox, elə hər yanda özündən başqa heç kəsi görmürsən. Ətrafındakılar sənin nəzərində səndən ötrü sənin məkrli niyyətlərinə, sənin çirkin məqsədlərinə çatmaq yolunda, sadəcə, bir vasitə və bir alətdir. Sən daxilən o qədər miskinləşmisən ki, hər yeri zülmət içində, qaranlığa qərq olmuş görürsən. Niyə? Çünki sən bu vətəni heç vaxt sevə bilmədiyin kimi, indi də ona bağlı deyilsən. Doğru deyiblər: kor gözləri görməyən deyil, görmək istəməyəndi.

Artıq əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey göz qabağındadır.

**Rəfiqə HÜSEYNOVA**

---



*Allah dəvəyə qanad versəydi...*

**RƏFİQƏ**

Dağıdıcı düşərgə liderləri yenə də bir "dirçəliş" baş verir. Necə deyərlər, görünür, qulaqlarına səs düşüb. Nə yaxşı ki, bu dağıdıcı düşərgə liderləri dəvə kimi hər şeyi qanmır. Qansaydılar, Tarif Şurasının yeni qərarının müsbət cəhətlərini mənfi istiqamətə yönəldərək, xalqı mitinqə səsləməzdilər. Məqsəd də bəllidir. Kimisi Qərbdəki ağalarından umacaqlarını qoparq üçün, kimisi siyasi gündəmdə qalmaqdan ötrü, saç yolub, üz cırmaq, ətəyi, tumanı başa çəkib haray-şivən qoparmaq, özünü zorla polisin qolları arasına atıb, üstəlik, o biri polisin də dəyənəyini əlindən alaraq öz başına vurmaq istərdi. Təki hərəsinin öz planı həyata keçsin, öz alveri baş tutsun. Məsələn, AXCP sədri Əli Kərimlinin mühacirət biznesi işə düşsün, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin Qərbdən nə isə tələb etmək üçün əlində "şüarı" olsun və s. Ancaq çifayda, istəkləri ürəklərində qalıb və nə yaxşı ki, belə də davam edir. Ona görə ki, atalarım "dəvə-qanad" məsələsi yada düşür.

Bu gün ölkəmizdə mitinqlərə sosial sifariş yoxdur. Ancaq dağıdıcı-şoumen müxalifət nümayəndələri, hətta fərdi qazancları üçün dəvədən də betər qan tökməyə cəhd göstərərdilər. Çünki imici zədələnmiş bəzi qüvvələrin siyasi sifarişi ondan ibarətdir ki, Azərbaycanda qarşıdurma səhnəsi qurulsun. Beləliklə, bəlli olur ki, müxalifət gündəmdə qalmaq üçün Azərbaycanda mənfi hadisələrin baş verməsi arzusu ilə yaşayır. Onlar Azərbaycanda baş verən ən kiçik məişət olayından belə, siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar.

Amma elə indidən gün kimi aydındır ki, əvvəllər olduğu kimi, bu dəfə də şoumen-məzhəkəçi Ə.Kərimli, C.Həsənli, A.Hacılı, G.Hacıbəyli, Leyla Yunus və s... arzuladıqlarınız təxribatlar baş tutmayacaq. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də məhz odur. Və unudursunuz ki, bu dövlətin ayaqda qalması, müstəqilliyinin qorunması, güclənməsi üçün daha hansı ağır sınaqlardan keçilməyib və sizin kimilər öz ucuz siyasətlərinizlə heç vaxt bu faktora təsir göstərmək gücündə deyilsiniz.

---

# "Milli Şura" və AXCP cütlüyü assosiasiyasından doğan reallıq

*Sosial şəbəkələrdə fəallıq göstərən müxalifətçilər belə qənaətə gəldilər*

Doğrusu, bu bambılı sözünü çoxdandır ki, nə işlədirdim, nə də hansısa bir yazıda görürdüm. Allah Əbdürrəhman bəy Vəzirova rəhmət etsin, indi ölüyə də, diriyə də rəhmət düşür. Vaxtilə Vəzirovun işlətdiyi o söz çox işlənirdi. İndi də müxalifət düşərgəsinin bambılıları o qədərdir ki... Elə də uzağa getməyərək, "Milli Şura" ilə AXCP-nin birgə "Məhsul" stadionunda keçirdikləri mitinq-şounun tərifinə "facebook"da heç bir düzəliş etmədən, senzurasız nəzər salmaq kifayətdir. Məsələn, sosial şəbəkə fəalı Elşən Həsənov Ə.Kərimli-C.Həsənli cütlüyünə xitabən, qeyd edir ki, "hamıya satqın, qorxaq, işverən və agent deyə-deyə özləri bambılı günündə qaldılar". "Başqa partiya, qurum və sadə vətəndaşları təhqir edən oğraşlar! Səsinizi kəsməsəniz, ağzınızı cıracağam. Bu, nə deməkdir? İnsanlar mitinqə gəlməyiblərsə, bunun üçün xalqı təhqir edərlərmi?" və..və..və...



Göründüyü kimi, bambılılar belə olmalıdır da... Və Ə.Kərimli, C.Həsənli, G.Hacıbəyli... kimi bambılıların rüsvayçı aksiyalarında da ancaq belə sözlər eşitmək olar. Sonra da aksiyaya adam gəlməyəndə, başlayırlar ki, söz azadlığı pozulur. Hansı söz azadlığından danışırsan? Xalq sənin kimi bambılını qəbul etmirsə, günahkar kimdir? Əlbəttə ki, pişiyin ağzı ətə çatmayanda, iylənib deyərlər. Lakin bunlarda pişik cürəti belə olmadığına görə, hərəsi bir klaviatura arxasında gizlənib, insanları təhqir etməklə məşğuldur.

### AXCP-dən-AXCP-yə: "Bunların hamısı "noxtalanmış müxalifət"dir..."

Elə bu yerdə ittihamçılar arasında Ə.Kərimlinin AXCP-sinə alternativ AXCP kimi fəaliyyət göstərən siyasi təşkilatın fəal üzvlərindən biri Seyid Mirfeyzulla da "Milli Şura"nın mitinq şousunu atəşə tutaraq, bildirib ki, bunların hamısı "noxtalanmış" müxalifətdir. Ə.Kərimli, C.Həsənli, G.Hacıbəyli və... bu kimi noxtalanmış müxalifətin hakimiyyətdən xalqa danışmaqlarına haqq qazandırmaq olarmı? Əlbəttə ki, yox! Onlar bambılıdırlar. Bax, bunu da öz içinizdən sizlərə dedilər. İndi də durub yenidən mitinq keçirmək istəyinizin üzərinə qayıdaq: yaxşı olar ki, oturasınız oturduğuz yerinizdə, onsuz da, gülünc vəziyyətdəsiniz, bambılılıq etməyin!

**R.HÜSEYNOVA**

---

# "Belə çağırışlar Azərbaycana heç bir təsir göstərməyəcək"

***"Hesab edirəm ki, sosial şəbəkələrdə din pərdəsi altında aparılan qarayaxma kampaniyası Azərbaycanda stabilliyi pozmağa qarşı yönəlmiş bir ssenarinin tərkib hissəsidir. Təbii ki, burada xaricdə Azərbaycana qarşı işləyən mərkəzlər dayanır. Onların əlaltıları Azərbaycanda fəallıq nümayiş etdirirlər".***

Bunu SİA-ya açıqlamasında "Yurddaş" Partiyasının sədri Mais Səfərli deyib. Onun sözlərinə görə, hüquq-mühafizə orqanları ilk növbədə ayıq-sayıq olmalıdırlar: "Onların təxribatlarının qarşısı çox kəskin şəkildə alınmalıdır. İkincisi isə cəmiyyət ayıq-sayıq olmalıdır. Videoyinlər öz övladlarına nəzarət etməlidirlər ki, gedib müxtəlif dini təriqətlərə qoşulmasınlar. Heç bir milliyyəti, mənşəyi bəlli olmayan insanların qurduğu o yalanlara aldanmasınlar. Ümumiyyətlə normal dini təbliğat aparılmalıdır. Din insanla Allah arasında olan bir ünsiyyətdir. İslamda təriqət söhbəti yoxdur. Bizim dinlə bağlı yalnız müraciət və əməl edə biləcəyimiz müqəddəs kitabımız Quranımız var. Quranda yazılanlara əməl etmək lazımdır. Kimlərinsə çağırışlarına əməl etmək bu elə özü dinə, İslama, Allaha qarşı çıxmaqdır.



Ona görə də hesab edirəm ki, Qafqaz Müsəlmanları İdarəsi bu məsələdə çox ciddi təbliğat aparmalıdır. Qeyri-hökumət təşkilatları, siyasi təşkilatlarımız da bu məsələdə öz sözünü deməlidir ki, cəmiyyətdə bunlara yer olmasın. Dini ayrı-seçkilik və bunun nəticəsində yarana biləcək qarşıdurmalar cəmiyyətdə böyük dağıntılara səbəb ola bilər. Bunun üçün bizim dövlətin hər bir imkanı var. Düşünürəm ki, belə bir çağırışlar Azərbaycana heç bir təsir göstərməyəcək".

---

# İki gündə qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 57 əcnəbi saxlanılıb

Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən iyulun 30-u və 31-də qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı ümumilikdə 57 əcnəbi saxlanılıb. DMX-dən APA-ya bildirilib ki, onlardan 15-i Hindistan, 15-i Türkmənistan, 9-u Gürcüstan, 4-ü Rusiya, 3-ü Türkiyə, 2-si Pakistan, 2-si Nepal, 2-si Qazaxıstan, 1-i Misir, 1-i İraq, 1-i Polşa, 1-i İtaliya vətəndaşı, 1-i isə Avstriya Respublikasında yaşayan vətəndaşlığı olmayan şəxsdir.

Saxlanılmış 10 nəfər Türkmənistan vətəndaşının Azərbaycan Respublikasının ərazisində gəlişinin bəyan edilmiş məqsədini pozduqları (səyyar ticarət), digər 47 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyənləşdirilib. Saxlanılmış əcnəbilərdən 41 nəfər barəsində qərarlar qəbul edilib, 14 nəfər Hindistan və 2 nəfər Nepal vətəndaşının Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.

# Siyasi, iqtisadi və demoqrafik böhran Ermənistanı süquta aparır

## *Paşinyan isə hesabata hızırlaşır*

***Doğurdan da, biganəlik və siyasi savadsızlılıq bu qədər olmaz. İşğalçı Ermənistanda daxili siyasi gərginlik və kütləvi etirazlar davam etməkdədir. Ancaq Nikol Paşinyan baş nazir postuna gəlməsinin 100-cü günü ilə bağlı avqustun 17-də mitinq keçiriləcəyi ilə bağlı məlumat verir. Sual olunur: hansı işləri ilə hesabat verir? Müşahidələr göstərir ki, Paşinyan hakimiyyətdə olacağı bu 100 gün ərzində hələ də, əslində, islahatları haradan başlamağın lazım gəldiyini bilmədiyini nümayiş etdirib.***












Belə görünür ki, Ermənistan ictimai şüurunda Nikol Paşinyan eyforiyası səngiyir. Cəmiyyət tədricən reallıqda nə baş verdiyinin fərqinə varmağa çalışır. N.Paşinyanın da pafoslu küçə ritorikasının imkanları tükənməkdədir. İnsanlara vəd verməyin bir həddi var. Müəyyən müddətdən sonra real əməl tələb olunur. İndi N.Paşinyan seçki məsələsini həll etməlidir. O, Seçki Məcəlləsində islahatlar aparılması ilə bağlı sərəncam da verib. Ancaq bu, heç də mövcud problemləri həll etməyib, əksinə, Ermənistanda siyasi abhavanı daha da ağırlaşdırıb. Proseslər göstərdi ki, Ermənistanda hökumət dəyişsə də, erməni siyasətinin məntiqi dəyişmədi. Hazırda cəmiyyət iki yol arasında qalıb - bir tərəfdən, Serj Sarkisyan iqtidarının yaratdığı korrupsiya sisteminin fəsadları, digər tərəfdən isə, hələ də küçə məntiqi ilə hansısa radikal dəyişikliklər etmək istəyən N.Paşinyan bəlası.

Eləcə də Ermənistanda kadr dəyişikliyi ilə ölkə həyatında hiss ediləcək yenilənmə müşahidə edilmir. Yeni təyin olunan qubernatorların vədləri göstərir ki, onlar Sarkisyanın kadrlarından elə də fərqlənmir. Digər məqam isə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyət də erməniləri çox narahat edir. Erməni mətbuatı daha çox Azərbaycan Ordusunun Naxçıvanda apardığı döyüş əməliyyatından yazırlar. Etiraf olunur ki, 11 min hektar ərazini Azərbaycan azad edib və hətta indiki Ermənistan sərhədi daxilində olan ərazilərə nəzarət təmin olunub. Azərbaycanın müdafiə naziri Zakir Həsənov Laçın yoluna da nəzarət edildiyini bəyan edib. Bütün bunların fonunda erməni ordusunda korrupsiya ilə bağlı yeni-yeni faktların aşkar edilməsi Ermənistan cəmiyyətini silkələyir. Başqa bir məqam Azərbaycanın yeni güclü silahlar əldə etməsi ilə əlaqəlidir. Erməni KİV-ləri Azərbaycanın "Polonez" və "Lora"dan sonra Rusiyanın SU-35 qırıcı təyyarələrini də alacağı haqqında məlumatlar yayır. Özü də bunu Ermənistanın SU-30-ları ala biləcəyi fonunda yazırlar. Yəni Azərbaycan daha güclü silah əldə edir. Bununla erməni mətbuatı silah məsələsində də İrəvanın Bakıdan geridə qaldığını ifadə edir.

Göründüyü kimi, bütün bu deyilənlər, onu bir daha göstərir ki, Ermənistan indiki mərhələdə iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin hansısa çıxış yolu tapacağı məlum deyil. Siyasi ekspertlərin sözlərinə görə, belə bir şəraitdə Ermənistanı hər hansı seçki sistemi də xilas edə bilməz. Həm də, ona görə ki, bu ölkənin qonşu dövlətlərlə münasibəti kökündən yanlışdır. Ermənistan təcavüzkar dövlət kimi qalmaqla uğurla inkişaf edən dövlət ola bilməz. Müasir beynəlxalq münasibətlər sistemində bu, prinsipcə mümkün deyil. Zamanzaman həmin münaqişə öz təsirini göstərəcək və Ermənistan daha ağır vəziyyətlərə düşəcək. Belə olan halda, görəsən, Paşinyan hansı üzlə xalq qarşısına çıxıb hesabat verəcək?

### Nikol Paşinyandan acı etiraf

Göründüyü kimi, yeni hakimiyyət üzləşdiyi bu vəziyyətdən çıxış yolu tapa bilmir. Bu 3 ay müddətində heç bir addım ata bilməyib. Sadəcə, korrupsiya ilə mübarizə adı altında bəzi iş adamları və məmurları, daha doğrusu, özünə rəqib hesab etdiyi şəxsləri sıxışdıraraq, onların əlindəkilərini almaqla məşğuldur. Vəziyyət elə bir hala gəlib ki, artıq Nikol Paşinyan etiraf edib ki. Ermənistan Azərbaycanla müharibədən qorxur, sərhədlərini də qoruya bilmir və... Artıq Paşinyan onu da yaxşı anlayır ki, Azərbaycanın güclü ordusu var: "İndi regionumuzda vəziyyət çox gərgindir. Müharibə ehtimalı çox böyükdür. Mən, bütün ermənilər, Ermənistanda olan hamı əmindir ki, Rusiya regionumuzda yeni eskalasiyaya imkan verməyəcək və Azərbaycanı Ermənistana və Qarabağa hücum etməyə qoymayacaq. Bunun üçün Rusiyanın bütün təsir vasitələri var. İnanıram ki, bizim strateji tərəfdaşımız, çoxəsrlik qardaşımız, çoxəsrlik dostumuz olan Rusiya müharibəyə imkan verməyəcək".

Göründüyü kimi, Ermənistanın baş naziri ölkəsinin döyüş meydanında Azərbaycanla başbaşa gələ bilməyəcəyini anlayır və təbii ki, Ermənistanın "yeganə qoruyucu mələyi" qismində Rusiyanı görür, ondan kömək umur.

N.Paşinyan bu "tarixi kəlamı" ilə tarixə düşür. O, dünyada ilk baş nazirdir ki, ölkəsinin öz sərhədlərini qorumaq bacarığının olmadığını, bu məsuliyyətin altına girmək istəmədiyini elan edir. N.Paşinyan Ermənistanın maliyyə problemi yaşadığını, bu baxımdan da, Rusiyadan maliyyə yardımı umduğunu gizlətmir. Bu gün regionda, məhz Azərbaycana qarşı təcavüz, işğalçılıq siyasəti yürütdüyünə görə, bütün irimiqyaslı layihələrdən kənarda qalan Ermənistan müstəqil olaraq, heç bir layihə həyata keçirə bilmir. Yeganə ümidləri isə sovet vaxtından qalan atom elektrik stansiyasının modernləşdirilməsidir ki, buna da maliyyə imkanları yol vermir.

Beləliklə, nə yaxşı ki, bu yerdə Azərbaycan Ordusu ilə müharibədən açıq-aydın qorxduğunu, ölkəsinin öz sərhədlərini qoruya bilmədiyini gizlətməyən "müstəqil ölkə"nin baş naziri Paşinyan, bu yerdə qeyrətə gəlib, həqiqəti etiraf edib.

**A.SƏMƏDOVA**

# Qərbin əlaltıları yenə də iş başındadır

*Xarici anti-Azərbaycan dairələrin maddi və mənəvi dəstəyi hesabına özlərini İranın bozbaş mollaları kimi aparmağa və təkəbbürlü çıxışları ilə gündəmdə qalmağa çalışan Azərbaycanın dağıdıcı müxalifəti son günlər bir qədər də fəallaşıblar. Onlar Qərb dünyasının eybəcərliklərini ört-basdır etmək üçün aktivlik göstərdikləri halda, Azərbaycanın ucqar dağ kəndində baş verən xırda məişət hadisəsini qabardıb, ondan siyasi məqsədləri üçün istifadə etməyə cəhdlər göstərir, şoular yaratmaq və məzhəkələr qurmala fəaliyyət sferalarını genişləndirməyə çalışırlar. Aradabir mitinqlər, piketlər keçirəcəkləri iddialarını da ortaya qoyurlar. Nədi-nədi xarici ağaları onlara qəpik-quruş halında tulapayı verir.*



Dağıdıcı müxaliflər də bu pullardan özlərinə gün-güzəran qurur və uşaqlarını xarici təhsil ocaqlarında oxudururlar. Halbuki bu əməlləri ilə Arif Hacılı, Əli Kərimli, Qənimət Zahid, Cəmil Həsənli və başqaları erməni lobbisinin Azərbaycana qarşı informasiya müharibəsinə özlərinə məxsus şəkildə dəstək vermiş olurlar. Lakin bu, reallıqdır ki, Azərbaycan çox güclü və qüdrətli dövlətdir. Bu dövlətə yerli və xarici qüvvələrin zərər vermək, müsbət imicinə kölgə salmaq imkanları sıfıra bərabərdir. Bu isə, onların fəaliyyətlərinin sabun köpüyündən başqa bir şey olmadığını göstərir.

### Müxalifət hələ də, xam xəyallar dünyasındadır

Dağıdıcı müxalif ünsürlər cəmiyyətin dəstəyindən məhrum olduğunu aydın şəkildə dərk etdiklərindən, özlərini tamamilə xarici qüvvələrin ağuşuna atıblar. Xarici maraqlı dairələrin verdikləri tapşırıqları hər vəchlə yerinə yetirməyə cəhdlər göstərirlər. Baxmayaq ki, dağıdıcı müxalifət nümayəndələrinin, "beşinci kolon"un və internet trollarının qara piar kampaniyası iflasa uğramaqdadır. Ölkəmizə qarşı apardıqları yalan və şər-böhtan kampaniyası bumeranq effekti verərək, elə özlərinin əleyhinə çevrilməkdədir. Cəmiyyət onlara olan nifrətini daha geniş və açıq şəkildə bəyan etməkdədir. Elə müxalifət şinelindən çıxan və ya müxalifət düşərgəsində təmsil oluna partiya sədrləri də sosial şəbəkələrdəki "söyüş müxalifəti"ni kəskin şəkildə ittiham edirlər. ADP sədri Sərdar Cəlaloğlu AXCP sədri Ə.Kərimlini ittiham edərək, onu sosial şəbəkələrdə trollar dəstəsi yaratmaqda qınayıb: "Əli Kərimli deyir ki, Elçibəy liderimdir. Qeyd edim ki, ölənə qədər Elçibəy onu yaxına buraxmamışdı. Çünki ona sağlığında xəyanət etmişdi. Müxalifətin bu günə düşməsinin baiskarı Ə.Kərimlidir. 2003-cü ildə İsa Qəmbərin namizədliyi məsələsində Əlinin hansı oyunları oynadığını çox gözəl bilirəm. Onun həmin vaxt mənə dediyi bir sözü açıqlayacağam. Demişdi ki, adım satqın kimi çıxdığına görə, sən bütün qüvvələrin İ.Qəmbərin ətrafında birləşməsi ideyasını irəli sür, mən də Etibara təzyiq edəcəm. İ.Qəmbəri dəstəkləməsi üçün onun xahişini yerinə yetirdim. Amma onun xarakteri özünü büruzə verdi. Bax, sən busan".

### Mehman Əliyev: "Azərbaycanda müxalifət institutu zəifləyib, sıradan çıxmaqdadır"

"Milli Şura"nın üzvü, "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev isə müxaliflərin bir-birinə qarşı mübarizə aparmaları səbəbindən, cəmiyyətdə özlərini gülüş obyektinə çevirdiklərini bildirib. Onun sözlərinə görə, səhv siyasət aparıldığından, Azərbaycanda müxalifət institutu zəifləyib sıradan çıxmaqdadır: "Partiya sədrlərinin uğursuz siyasətlərinin acı nəticələri görünməkdədir. Dəyişiklik və yenilik olmasa, müxalif partiyaların sıradan çıxmaları gözləniləndir".

Siyasi təhlilərə və müxalif yetkililərin yanaşmalarına istinadən, demək olar ki, yaxın vaxtlarda, həqiqətən də, AXCP və Müsavat kimi partiyalar da sıradan çıxacaq. "Milli Şura" isə müxalifətin yaratdığı "SİDSUH", "DUH", "DUBB" və bu kimi məhv edilərək, tarixin arxivinə atılan qurumların aqibətini yaşamalı olacaq. Xatılatmaq lazımdır ki, AXCP və Müsavat rəhbərləri və funksionerləri şəxsi ambisiyalarını təmin etmək məqsədilə "Milli Şura" deyilən qurum yaratmışdılar. Rəhbərliyə də, kina çəkən Rüstəm İbrahimbəyovu seçmişdirlər. Lakin iddialar özünü doğrultmadığından və nəzərdə tutulan maliyyə yardımaları ayrılmadığından, Müsavat bu qurumdan çıxdı. Beləliklədə, "Milli Şura" dağılmağa başladı. Əslində, bu qurum da mahiyyəti, məramı və məqsədinə görə əvvəlkilərdən heç nə ilə fərqlənmirdi. Söz yox ki, radikal müxalifət bu qurumları məqsədsiz yaratmır. Əsas məqsədləri isə, düşmən dairələrdən çirkli pullar qoparmaqdır. Onlara qrantlar verən anti-Azərbaycan qrupları inandırmağa çalışırlar ki, guya yeni yaratdıqları qurum cəmiyyətin sosial-siyasi sifarişidir. Ancaq Müsavatın qurumu tərk etməsi ilə yaranan xaos və bunun fonunda qarşılıqlı ittihamlar sosial sifariş deyilən iddianın uydurmadan başqa bir şey olmadığı məlum oldu.

### Müxalifətdə yeni qarşıdurmanın əsası qoyulur

Hazırkı məqamda ən təlatümlü və narahat partiyalar AXCP, ADP, KAXCP və Müsavat partiyalarıdır. Ümumiyyətlə isə, bu gün düşərgə daxilində eyni mövqedən və eyni ideyanın dəstələnməsi yönümündə çıxış edən iki partiya tapmaq mümkün deyil. Qarşılıqlı ittihamlar bütün düşərgəni əhatə etçəkdədir. Partiyaların daxilində də vəziyyət ürəkaçan deyil. Bunu Müsavat və AXCP-də baş verən daxili qarşıdurmalrdan çoxsaylı misallar göstərməklə də, sübut etmək olar. Arif Hacılının başqanılığa gətirilməsindən sonra partiya daxilində qarşıdurmalar günbəgün artmaqdadır. Partiya başqanı A.Hacılının idarəçiliyindən narazı olan qruplar açıq müstəvidə mübarizəyə başlayaraq, situasiyanı öz xeyirlərinə dəyişdirməyə çalışırlar. Bundan istifadə edən AXCP sədri Ə. Kərimli yaranmış vəziyyətdən səmərəli istifadə etməyə çalışır. Nəzərə almaq lazımdır ki, bu iki partiya arasında əzəli düşmənçilik mövcuddur. Hər iki partiya funksionerləri bir-birini sıradan çıxarmaq üçün məqam gözləyiblər. Müsavatda baş verənlər Ə.Kərimlinin işinə yaradığından, o, bütün qüvvəsi ilə Müsavatı tamamilə sıradan çıxarmağa çalışır. Müxalifət düşərgəsində hazırda iki qütbə bölünən partiya funksionerləri arasında qarşılıqlı ittihamlar güclənməkdədir. Amma Müsavat funksionerləri AXCP-nin həmləiəri qarşısından geri çəkilmək fikrində deyillər. Bu cür qarşıdurmalar və çəkişmələr söz yox ki, Müsavatı arxivə sürükləyir. Daha doğrusu, Müsavat artıq arxivin qapısı önündədir. Adi bir zərbə kifayət edər ki, proqnozlar reallığa çevrilsin.

**İ.ƏLİYEV**

---

# ANAMA iyulda 168 partlamamış hərbi sursat, beş mina aşkarlayaraq zərərsizləşdirib

İyulda Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən Abşeron, Ağcabədi, Ağdam, Ağstafa, Cəbrayıl, Daşkəsən, Füzuli, Goranboy, Göygöl, Xocavənd, Qazax, Qaradağ, Lənkəran, Tərtər, Tovuz rayonlarında, Gəncə və Sumqayıt şəhərlərində 424 min 299 kvadratmetr ərazi yoxlanılıb. Ay ərzində 168 partlamamış hərbi sursat, piyada əleyhinə iki və tank əleyhinə üç mina aşkarlanaraq zərərsizləşdirilib.



ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, əməliyyatlara 486 nəfərlik əməliyyat, 134 nəfərlik inzibati heyət, 6 mexaniki minatəmizləmə maşını və 40 minaaxtaran it cəlb olunub.

İndiyədək cəmi 529 milyon 515 min 651 kvadratmetr ərazi təmizlənib, 797 min 96 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib. İyulda Daxili İşlər Nazirliyinin "102 - Zəng Mərkəzi" Xidmətindən səkkiz, Fövqəlade Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən yeddi, Dövlət Sərhəd Xidmətindən iki və rayon icra hakimiyyətindən bir müraciət daxil olub. Müraciətlər əsasında 11 min 170 kvadratmetr ərazi təmizlənib, 32 partlamamış hərbi sursat aşkarlanaraq Agentliyin məhvəzi məhvetmə ərazisində zərərsizləşdirilib. Ötən ay mina və partlamamış hərbi sursat hadisəsi qeydə alınmayıb.

---

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 2-də Füzuli rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və onun səhra köməkçisi Gennadi Petrika aparacaqlar.

## Hacıqabuldakı yol qəzasında bir ailənin 3 üzvü ölüb!

Hacıqabul rayonunda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. APA-nın verdiyi xəbərə görə, Bakı-Qazax avtomobil yolunun, rayonun Qaraçı kəndi ərazisindən keçən hissəsində 90-MH-552 dövlət nömrə nişanlı BMW markalı minik avtomobili 20-CR-905 dövlət nömrə nişanlı KamAZ markalı yük avtomobilinə arxadan çırpılıb.

Qəza nəticəsində minik avtomobilində olan sərnişinlərdən 3 nəfər ölüb, 4-ü xəsarət alıb. Ölənlərdən ikisi qadın, biri isə yeniyetmə oğlan olub. Qəza zamanı xəsarət alanlar Şirvan şəhər xəstəxanasına yerləşdirilib. Hadisə nəticəsində həlak olan və xəsarət alanlar bir ailənin üzvü olub. Faktla bağlı araşdırma aparılır.

***Bəşəri hüquqlar insanlara hər hansı hökmdar və ya hökumət tərəfindən deyil, Allah tərəfindən bəxş edilmişdir. R.Maksud yazır: “Hər bir müsəlmanın vəzifəsi isə bu hüquqları fəal surətdə müdafiə etməkdən ibarətdir. Əks-təqdirdə bəxş edilmiş bütün hüquqlar itirilə bilər. İtirilmiş hüquqlar, yəni tam hüquqsuzluq şəraitində həmişə qəddarlıq və müstəbidlik hökm sürür, günahsız insanların nəsibi əzab və iztirablar olur.***

# İslam və qadın hüquqları



Göstərmək zəruridir ki, insanın əsas hüquqlarına islam tərəfindən həmişə təminat verilmişdir, Beləliklə, islam tərəfindən təminatlandırılan əsas insan hüquqları aşağıdakılardır;

**1}** yaşamaq hüququ;
**2}** bərabərlik hüququ;
**3)** azadlıq hüququ;
**4)** azad rəy hüququ;
**5)** siyasi azadlıq hüququ;
**6)** mühacirət və sığınacaq hüququ;
**7)** layiqli həyatı təmin edən əmək hüququ;
**8)** ədalət mühakiməsi hüququ;
**9)** qanun qarşısında bərabərlik hüququ;
**10)** şəxsi şərəfin müdafiəsi hüququ;
**11)** sosial rifah hüququ;
**12)** nikah hüququ;
**13)** şəxsi həyat və təhlükəsizlik hüququ;
**14)** ləyaqət hüququ;
**15)** təhsil hüququ;
**16)** qəddarlıq əleyhinə etiraz hüququ;
**17)** azad ifadə hüququ;
**18)** azad yığıncaqlar hüququ;
**19)** vicdan və əqidə hüququ;
**20)** dini hisslərin müdafiəsi hüququ;
**21)** dövlət işlərində iştirak hüququ;
**22)** layiqli həyat hüququ”.

Beləliklə, hüquq bu və ya digər sivilizasiyanın dini dayaqlarının əhəmiyyət kəsb edən refleksiyasıdır. Bu zaman iradə azadlığı, seçim azadlığı, şübhəsiz, insana aid azadlıqlar hesab olunurlar. Əkstəqdirdə sosial normaların konstruksiyası öz mənasını itirmiş olardı.

Sosial-dini tənzimetmənin məqsədini dünyagörüşünün formalaşması təşkil edir. Zərurilik, müəyyən mömin həyat tərzi keçirmək zərurətinə inam həmin dünyagörüşündən irəli gəlir. Dinin məqsədi möminliyi dinin başa düşdüyü formada müəyyən etməkdən ibarətdir. Möminlik həm cəmiyyət, həm də insan həyatında kök salmalıdır.

Hüquqi tənzimetmənin predmetini isə, hamısı olmasa da, ictimai münasibətlər təşkil edir. Hüquqi tənzimetmənin həsmi müxtəlif tarixi dövrlərdə dəyişə bilər. S.S.Alekseyev onlardan həmişə hüquqi tənzimetmənin predmeti olaraq qalanları dəlilli surətdə fərqləndirir. Onlara aşağıdakılar aid edilir:

1) insanların həm maddi, həm də qeyri-maddi (müəllifin fikrincə, burada hüquqi tənzimetmənin mümkünlüyü və zəruriliyi daha parlaq təzahür edir) dəyərlərin müdafiəsi üzrə münasibətləri;

2) dövlətin məcburiyyət qüvvəsi ilə təmin edilən ciddi qaydalarla cəmiyyətin hakimiyyət idarəetməsi üzrə münasibətlər;

3) hüquq qaydasınm təmin edilməsi üzrə ictimai münasibətlər.

Müəllifə görə, yuxarıda qeyd edilən ictimai münasibətləri tənzimləyən normalar dəyərlərin müdafiəsi və idarəetmə proseslərinin normal axımını təmin etməyə xidmət edir.

Hüquqdan fərqli olaraq, din, daha dəqiq desək, dini normalar həyatın həm xarici, həm də daxili cəhətlərini əhatə edirlər. Üstəlik də, burada prioritet insanların fikirləri, dünyagörüşü, hərəkətlərinin motivasiyası da daxil olmaqla, onların daxili aləminə məxsusdur. “Hüquq üçün səciyyəvi olan formalizm və məcburiyyət bir yerə sığmazdır. Hüququn formalizmi müqəddəsliyə münasibətdə ruhun vəziyyətini həll edə bilməz, onun məcburiyyəti isə xristian həyat tərzi keçirməyə məcbur edə bilməz. Əslində isə, hüquq və din arasındakı gərginliyin kökü təkcə hüququn məcburiyyəti və formalizmində deyil, həm də hüquqi təfəkkürün təbiətində, onun xarici istiqamətindədir. Dini düşüncə üçün daxili inam, sevgi və əqidə vacibdir ki, buna da imperativ qaydada məcbur etmək olmaz.

Hüququn və dinin qarşılıqlı əlaqəsi məsələsinin öyrənilməsinə İ.A.İlyin böyük töhfə vermişdir. O özünün hüquq fəlsəfəsinə, estetikaya, din fəlsəfəsinə dair tədqiqatlarında, dini pravoslav mövqelərdən yazılmış publisist əsərlərində rus milli özünüdərketmə haqqında fikirlərini formalaşdırmışdır.

Akademik Hacı Vasim Məmmədəliyev universal xarakter daşıyan islam qanunlarının bəşər həyatının bütün sahələrini əhatə etdiyini, fərdi əlaqələri, sosial münasibətləri layiqincə tənzimlədiyini, insanın hüquq mükəlləfiyyətlərini, onun dövlət və cəmiyyət qarşısındakı məsuliyyətlərini tam dəqiqliyilə müəyyən etdiyini qeyd etməklə vacib, məsuliyyətli mənbələrdən biri kimi islam cəmiyyətində ailə üzvlərinin hüququ olduğunu göstərir.

İran tədqiqatçısı H.Ə.Yusifpur “İslam hüququ və ailə” üç hissədən ibarət, birinci hissədə əsəri islamaqədərki dövrdə qadın hüququ, ərəb dünyasında və inkişaf etmiş qadınların vəziyyəti, islam dini və qadınların hüququ: islamda qadın hüquqlarının müdafiəsi, onun maddi-mənəvi hüquqları, qarşılıqlı məhəbbət əsasında qurulmuş ailə, mənəviyyatsız qadınlarla davranma qaydası, ailə cinayəti, ailədə qadınların vəzifələri, ailədə kişi rəhbərliyinin qəbul edilməsi, mənəvi və digər təmizlik, qadın və cihad məsələsi; ikinci hissədə valideyn hüququ, üçüncü hissə isə övladların hüququ araşdırılıb.

İnkişaf etmiş və inkişaf etməmiş ölkələrdə qadın hüquqsuzluğundan bəhs edən müəllif Qədim İranda da vaxtilə onların ağır vəziyyətdə olduğunu göstərir: “İranda da qadınlar zehni və əməli müstəqilliyə malik deyildilər. Onlar tamamilə kişilərin ixtiyarında idilər və ümumən müti bir vəziyyətdə yaşayırdılar. Buna görə də, Qədim İran dövlətində hər bir kişi heç bir məhdudiyyət olmadan istədiyi sayda arvad ala bilərdi. Amma iranlı qadınlar ərlərinin vəfat etməsindən sonra izdivac edə bilməzdilər”. İslam qəbul edənədək İranda da qadın hüquqsuz vəziyyətdə olmuşdur. İşıqlı ideyalar sistemi olan islamın yaranması ilə bütün sahələrdə olduğu kimi, qadınların həyat tərzində də dəyişiklik yaratdı. İslam qadını köləlikdən xilas etdi və qadın-kişi bərabərliyini gerçəkləşdirdi.

Qurani-Kərimdə qadın və kişilərin möminliyi, mənəvi saflığı əsas üstünlük meyarı hesab olunur: “Kişilərin və qadınların hər biri bərabərhüquqlu olub, öz mallarına və sərmayələrinə malikdirlər.” Allah sizin üçün özünüzdən (yəni öz cinsinizdən) zövcələr yaratdı.

Qadınların xaricdə təhsil almalarını tənzimləyən qanun layihəsi hələ də İranın Milli Məclisində davam edən mübahisəli məsələlərdəndir. Bu layihəyə görə, qadına yalnız ərinin müşayiəti ilə xaricdə təhsil almağa icazə verilir.

“Pəyame-Həcər” belə hesab edir ki, layihədəki bu müddəa ilə qadınlar müstəqil-şəxsiyyət kimi inkar olunurlar ki, bu da hicabın fəlsəfəsinə ziddir: Hicab qadınların şəxsiyyətinin qiymətləndirilməsi üçün vasitədir. (Nə üçün qadınlar) İran hökuməti nəzdindəki Qadınlar Şurası Məclisin qadın deputatlarından xahiş etmişdi ki, onlar qadın tələbələrin xaricə göndərilməsi üçün Məclisdə məsələ qaldırsınlar. Lakin deputat qadınların verdikləri müvafiq təklif Məclis tərəfindən rədd olunmuşdu.

1982-ci ildə “Ailə müdafiəsi haqqında” Qanunun ləğv olunması İranda qadınların hüquqi və sosial-iqtisadi statusuna ciddi təsir göstərdi. Ailə-nikah münasibətlərində kişi daha çox səlahiyyətlərə malik oldu. Halbuki İran İslam Respublikasının Əsas Qanununun birinci fəslinin üçüncü maddəsinin 14-cü bəndində adamların qadın və ya kişi olmasından asılı olmayaraq, hərtərəfli hüquqlarının təmin edilməsi, hamı üçün ədalətli məhkəmə qurumunun təhlükəsizliyinin təmin edilməsi, hamının ümumi qaydada qanun qarşısında bərabərliyi göstərilməklə, onuncu maddə, bütünlüklə ailəyə həsr olunub: “Ailə islam cəmiyyətinin bünövrə vahidi olduğuna görə bütün qanun və qaydalar və müvafiq proqramlaşdırmalar ailə təşkilini asanlaşdırmağa, onun müqəddəsliyini qorumağa və ailə münasibətlərinin islam hüququ və əxlaqı əsasında möhkəmləndirilməsinə yönəlməlidir”.

Çoxarvadlılıq və müvəqqəti nikah məsələsinə gəldikdə, onu qeyd etmək lazımdır ki, çoxarvadlılığa şah rejimi dövründə də icazə verilirdi. Lakin qanuni cəhətdən bu, Pəhləvi mütləqiyyəti dövründə inqilabdan sonrakı dövrə nisbətən daha məhdud xarakterdə idi, çünki Ailə Müdafiəsi Qanununa görə, ikinci arvad almaq üçün birincinin icazəsi tələb olunurdu. Bundan əlavə, qanunun tələbinə görə, çoxarvadlılıq və boşanma ilə bağlı şərtlər, ərin arzusundan asılı olmayaraq, bütün nikah müqavilələrinə daxil edilirdi.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 2 avqust

## İsveçdə kralın tacı oğurlanıb

İsveçdə IX kral Karlın tacı saxlandığı yerdən oğurlanıb. AZƏRTAC İsveç KİV-lərinə istinadla xəbər verir ki, hadisə Stokholmdan 120 km uzaqlıqda yerləşən Strangnas şəhərinin XVII əsrə aid olan kafedral kilsəsində baş verib. IX kral Karlın dəfnində istifadə edilən əşyalarla və əsası ilə yanaşı, onun və həyat yoldaşı kraliça Kristinanın taclarını da oğurlayıblar. Yerli jurnalistlər oğurlanan əşyaların çox qiymətli olduğunu qeyd edir.Şahidlərin verdiyi məlumata əsasən, oğurluğu bir neçə nəfərdən ibarət cinayətkar qrup həyata keçirib. Şahidlər, habelə bildirib ki, oğrular hadisə yerini motorlu qayıqdan tərk ediblər. Cəmiyyətdə böyük əks-səda doğuran oğruluq hadisəsi ilə bağlı İsveç polisi istintaq işlərinə başlayıb. Yerli polisin rəsmisi Tomas Agnevikin sözlərinə görə, axtarışlar yerdə, suda və havada aparılır. Polis cinayətkarların gizləndiyi yerin ifşası üçün bütün istiqamətləri yoxlayır.



## Dünyanın ən intizamlı əsgəri 27 il komandirinin əmrini gözləyib

II Dünya müharibəsi başa çatdıqdan 27 il sonra Quam adasında qamışlıqda gizlənmiş və hələ də komandirinin əmrini gözləyən yapon əsgəri tapılıb. AZƏRTAC xəbər verir ki, bu barədə "Newhistorian. com" saytında məlumat yer alıb. 1944-cü ilin iyulunda ABŞ və Yaponiya qoşunları arasında Quam adasında amansız döyüşlər zamanı yapon ordusunun əsgəri Şoiçi Yokoi cəngəllikdəki qamışlıqda qazdığı mağarada gizlənib. Çoxlu itkilər verən yapon ordusu adanı tərk etdikdən sonra amerikan əsgərləri gizlənən düşmən hərbçilərini əsir götürüblər. Onların cəngəlliyi axtardığı vaxt Soiçi Yokoi gizləndiyi mağaranı bambuk ağacı ilə örtüb və 27 il çayın kənarındakı bu sığınacaqda komandirinin əmrini gözləyib. Nəhayət, 1972-ci ildə çayda balıq tutduğu zaman amerikalı ovçulara rast gələn yapon əsgəri qaçmağa başlayıb və qarşıdakı polis məntəqəsində onu həbs etmək istəyən silahlı qanun keşikçilərinə müqavimət göstərib. Amerikan polisi tərəfindən həbs olunduğu zaman əsir düşmək istəmədiyi üçün öldürülməsini xahiş edən Yokoi tezliklə Yaponiyaya göndərilib və burada qəhrəman kimi qarşılanıb. Yapon əsgəri onu qarşılayan həmvətənlərinə deyib: "Mən sağ qayıtdığım üçün utanıram".



İntizamlı əsgər yaponlar üçün qəhrəmanlıq, şərəf və imperatora sədaqət rəmzinə çevrilib. 1972-ci ildə Yaponiya İmperatorunun qəbulunda olan Yokoi deyib: "Mən sizə lazımınca xidmət edə bilmədiyim üçün dərin təəssüf hissi keçirirəm. Artıq dünya çox dəyişib, amma mənim sizə xidmət etmək niyyətim heç bir zaman dəyişməyəcək". Həyatının qalan hissəsini rifah içərisində keçirən intizamlı əsgər 1997-ci ildə - 82 yaşında dünyasını dəyişib.

**ELAN**

"MURPNY SHIPPING & COMMERCIAL SERVICES AZERBAIYAN" LTD Şirkətinə məxsus: AZN 15 N-li, 655200-655728., 655751-655790., 655801, 655927, 655848, 655850-655873., 655955, 655946-655956., 986021-986029., 986059, 986173, 986099, 986130, 986151, 986153-986200., 986209, 986233, 986242, 986250, 986291-986294., 986339, 986349. 986400, 986401. 986431, 986432, 986435, 986437, 986450, 986484, 986494, 986514, 986549, 986550. 986562, 986563, 986584, 986607-986610, 986674. 986676, 986747, 986749. 986777. 986779, 986830, 986897, 986903, 986904, 986909. 986918, 986937, 986950, 986911. 986913, 986954, 986966, 986967, 986980, 986981, 986985. 986986, 986987, 056006, 056014, 056016-056018., 056063, 056139, 056178-056179, 056276-056282, 056285, 056294-059297, 056300, 056302, 056479-056485., 056551-056562, 056586. 056688-056689, 056691, 056752, 056782., 056792-056793., 056891, 056909., 059928, 056931-dək olan cəmi 764 ədəd Kassa Mədaxil Qəbzləri itdiyi üçün etibarsız sayılır.

## İquain "Milan"dan 9 milyon istəyir



"Yuventus"un hücumçusu Qonsalo İquainin "Milan" keçidi gerçəkləşməyə bilər. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, klublar öz aralarında razılığa gəlsələr də, argentinalı futbolçunun tələbləri Milan təmsilçisini çətin vəziyyətdə qoyub. Birincisi, 30 yaşlı forvard "Milan"a icarə əsasında deyil, tam transfer hüququ ilə getmək istəyir. İkincisi isə İquain "rossonyerlər"dən illik 9 milyon avro maaş tələb edir. "Milan" isə ona 7,5 milyon təklif edir. İquainin "Milan"la razılıq əldə edə bilməməsi ən çox "Çelsi"yə sərf edir. Olivye Jirunun satılmasını istəyən Mauritsio Sarri fransız hücumçunun boşluğunu "Napoli"dən tanıdığı argentinalı ilə doldurmaq istəyir.

## Milli Gimnastika Arenası növbəti milli yarışına hazırlaşır




Avqustun 10-dan 12-dək Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyi keçiriləcək. Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, turnirlərdə həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları arasında qaliblər çoxnövçülük xalına görə müəyyənləşəcək. Komanda hesabında mübarizədə isə 2008-2010-cu və 2006-2007-ci il təvəllüdlü gimnastlardan ibarət qrup hərəkətləri komandalarının, o cümlədən 2008-2010-cu, 2006-2007-ci və 2003-2005-ci yaş kateqoriyalarına aid fərdi gimnastların ən yaxşı nəticələri nəzərə alınacaq. Yarışlarda Bakı Gimnastika Məktəbi, "Ocaq Sport" Klubu, "AyUlduz" Klubu, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Respublika Kompleks İdman Məktəbi, "Zirvə" İdman Klubunu, o cümlədən Qusar və Gəncə şəhərlərini təmsil edən 73 gimnast mübarizə aparacaq. Üç gün davam edəcək turnirdə tamaşaçıların əyləncəli vaxt keçirmələri üçün maraqlı müsabiqələr və fleşmoblar da təşkil olunacaq.

## Lassano Diara Fransa millisindəki karyerasını başa vurub



PSJ-nin futbolçusu Lassano Diara Fransa millisindəki karyerasını başa vurub. Qol.az-ın məlumatına görə, bu barədə 33 yaşlı yarımmüdafiəçi yerli mətbuata açıqlamasında deyib. Qeyd edək ki, L.Diara Fransanın əsas milli komandasında 34 matçda iştirak edib. O, yığma ilə son oyununa 2016-cı ilin mayında Kamerunla görüşdə çıxıb.

## "Mançester Yunayted" Anton Marsyalı cərimələyib



"Mançester Yunayted" futbolçusu Anton Marsyalı 250 min dollar məbləğində cərimələyib. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, buna onun komandanın ABŞ-dakı düşərgəsini özbaşına tərk etməsi səbəb olub. Uşağı dünyaya gəldiyi üçün Parisə gedən 22 yaşlı hücumçu baş məşqçi Joze Mourinyonun tələbinə baxmayaraq, 8 gündür ABŞ-a qayıtmayıb. Qeyd edək ki, "Mançester Yunayted"in Marsyalla yolları ayıra biləcəyi iddia olunur.

## Kolumbiyalı futbolçu vergidən yayındığı üçün cərimə ödəyəcək

"Bavariya"da icarə əsasında çıxış edən Xames Rodriqes vergidən yayındığı üçün İspaniya hökumətinə 11.65 milyon avro cərimə ödəyəcək. "El Mundo" nəşri yazır ki, 2014-cü ildə "Real"a transfer olunandan sonra İspaniyaya köçən 27 yaşlı kolumbiyalı burada vergi ödəmədiyi üçün cərimələnib. Qeyd edək ki, X. Rodriqes müqavilə "Real"a məxsusdur.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**